# İranda baş verən zəlzələ Naxçıvanda hiss olunub



**İranda baş verən zəlzələ Naxçıvanda da hiss olunub.**

Bu barədə "Şərq"ə Respublika Seysmoloji Xidmət Mərkəzindən xəbər verilib.

Zəlzələlərin tədqiqatı bürosunun məlumatına əsasən, yerli vaxtla saat 15:47-də Naxçıvan stansiyasından 131 km cənub-qərbdə, İran ərazisində zəlzələ qeydə alınıb. Zəlzələ Naxçıvan Muxtar Respublikasında 5-3 bala qədər hiss olunub. Zəlzələnin maqnituası 5.5, dərinliyi 10 km olub.

## TDT liderləri Azərbaycanın İrandakı səfirliyində törədilən terror aktını pisləyib



**Türk Dövlətləri Təşkilatı (TDT) Azərbaycanın İrandakı səfirliyində törədilən terror aktını pisləyib.**

Bu barədə TDT liderlərinin Zirvə görüşünün yekunlarına dair Ankara Bəyannaməsində deyilir.

"TDT ölkələrinin liderləri təqsirkarların məsuliyyətə cəlb edilməsi üçün tez və hərtərəfli araşdırmanın aparılması üçün çağırış edib", - qeyd olunub.


№ 49 (5810) 2023-cü il

Qiymәti 40 qәpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 17 mart 2023-cü il (cümə)





# Talış kəndinə qaydış baş tutdu

## 20 ailə öz dədə-baba yurdlarına köçürülüb

**"Böyük Qayıdış" proqramı çərçivəsində ilk mərhələdə köçürülən ailələr artıq Tərtər rayonunun erməni işğalından azad edilmiş Talış kəndinə çatıblar.**

"Report"un Qarabağ bürosunun xəbərinə görə, Bakı, Bərdə, Tərtər, Samux və Goranboyda, əsasən, ağır şəraitdə, qəzalı vəziyyətdə olan müvəqqəti məskunlaşma yerlərində yaşayan 20 ailə (90 nəfər) Novruz bayramı ərəfəsində öz dədə-baba yurdlarına köçürülüb.

Ailələri Talış kəndində Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynovla Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov qarşılayıblar. Kəndə köçürülən sakinlər hazırda yeni evlərinə yerləşdirilirlər.



## Ərdoğanın prezidentliyə namizədliyinin irəli sürülməsi ilə bağlı qərar qəbul edilib

**Hakim Ədalət və İnkişaf Partiyasının (AK Parti) Türkiyə Böyük Millət Məclisindəki (TBMM) fraksiyası Rəcəb Tayyib Ərdoğanın yenidən prezidentliyə namizədliyinin irəli sürülməsi ilə bağlı qərar qəbul edib.**

Bu barədə "TRT Haber" məlumat yayıb.

Qeyd edək ki, bu il mayın 14-də Türkiyədə Prezident və parlament seçkiləri keçiriləcək.

*Xatırladaq ki, 69 yaşlı Rəcəb Təyyib Ərdoğan Türkiyə Respublikasının 12-ci prezidentidir. O, 2003-2014-cü illərdə Türkiyənin Baş naziri olub, 2014-ci ildən isə Türkiyə Prezidentidir.*

# Türk dünyası tək ürək olur

## TDT liderləri Ankara Bəyannaməsini imzalayıblar




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə martın 16-da Ankarada keçirilmiş Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşündə Bəyannamə qəbul olunub.**

**"Şərq" Ankara Bəyannaməsini təqdim edir.**

"Türk Dövlətləri Təşkilatının (bundan sonra TDT adlandırılacaq) "Fəlakət - Fövqəladə halların idarə edilməsi və humanitar yardım" mövzusunda Fövqəladə Zirvə görüşü Azərbaycan Respublikasının təşəbbüsü ilə 16 mart 2023-cü ildə Ankarada keçirilmişdir.

İclasa Türkiyə Respublikasının Prezidenti Zati-aliləri Rəcəb Tayyib Ərdoğan ev sahibliyi etmişdir və iclasda Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Əliyev, Qazaxıstan Respublikasının Prezidenti Zati-aliləri Kasım-Jomart Tokayev, Qırğız Respublikasının Prezidenti Zati-aliləri Sadır Japarov, Özbəkistan Respublikasının Prezidenti Zati-aliləri Şavkat Mirziyoyev, Türkmən xalqının Milli Lideri və Türkmənistanın Xalq Məsləhətinin Sədri Zati-aliləri Qurbanqulu Berdiməhəmmədov, Şimali Kipr Türk Respublikasının Prezidenti Zati-aliləri Ersin Tatar, Macarıstanın Baş naziri Zati-aliləri Viktor Orban, eləcə də Türk Dövlətləri Təşkilatının Baş katibi Zati-aliləri Kubanıçbek Omuraliev iştirak etmişlər.


(səh.2)


## YAP İdarə Heyətinin iclası keçirilib

### 38 nəfər partiya sıralarından xaric olunub



**Martın 16-da Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin videokonfrans formatında iclası keçirilib, 38 nəfər partiya sıralarından xaric olunub.**

Bu barədə "Şərq"ə YAP-ın mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, iclasın müzakirəsinə Yeni Azərbaycan Partiyasının 2022-ci il üzrə maliyyə hesabatlarının təsdiq edilməsi, Yeni Azərbaycan Partiyasının üzvlüyündən xaric edilməsi təklif olunan şəxslərlə bağlı YAP rayon (şəhər) təşkilatlarının təqdimatlarına baxılması və cari məsələlər çıxarılıb.


(səh.2)


# Böyük sevinc var

## Ramazan ayı bu dəfə qardaş Türkiyə ilə eyni vaxtda başlayır



**Azərbaycanda müqəddəs Ramazan ayının başlanma tarixinin qardaş Türkiyədə elan olunan Ramazan tarixi ilə üst-üstə düşməsi böyük sevincə səbəb olub.**

Anlaşılandır. Adətən ölkəmizdə həm Ramazan ayının başlanması, həm də sonlanması - Ramazan bayramı Türkiyədən bir gün sonra vaqe olurdu. Bununla belə yüksək tolerantlıq mühitinə malik ölkəmizdə din xadimləri də, dövlət də bütün məzhəbləri nəzərə alaraq Ramazan bayramının həmişə 2 gün qeyd edilməsi barədə qərar veriblər. Bu dəfə də eyni yanaşmadır.


(səh.4)




## "Kim kimin üstündədir?"

### Zaxarova Paşinyanın KTMT ilə bağlı bəyanatına kinayə ilə cavab verib

**"Ermənistan Baş naziri Nikol Paşinyanın KTMT ilə bağlı bəyanatını görəndə Bulqakovla Stanislavskinin iki məşhur sitatı yadıma düşdü".**

Bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bu gün keçirdiyi brifinqdə Ermənistan Baş naziri Nikol Paşinyanın "Təhlükə var ki, KTMT-Ermənistandan gedəcək" bəyanatına münasibət bildirərkən deyib.


(səh.2)


## Daha iki nəfər ermənilərin mina terrorunun qurbanı oldu

### Ermənistana "mülki missiya" yollayanlar, Rasmussen kimi yaramazları qabağa verənlər, bu cinayətə ortaqdır



**Ağdam rayonunun Yusifcanlı kəndi ərazisində kəndin iki sakini mina partlayışı nəticəsində həyatlarını itirib.**

Onlar heyvan otararkən minaya düşüblər. Hadisədən sonra Xarici İşlər Nazirliyi növbəti dəfə beynəlxalq təşkilatlara Ermənistanın mina terroru ilə bağlı çağırış edib. Nazirlik dünya ictimaiyyətini Ermənistanın cinayətlərinə göz yummamağa səsləyib. Məlumat üçün bildirək ki, Vətən müharibəsindən indiyə qədər ümumilikdə 286 nəfər mina qurbanı olub, onlardan 48 nəfər həlak olub.


(səh.4)


## Yumurtanın qiyməti süni bahalaşdırılıb

### Tələbatın böyük olduğu məhsullara nəzarət olmalıdır



**Broyler yumurtasının qiyməti 18-19 qəpikdən 25 qəpiyə yüksəlib.** Kənd yumurtasının topdansatış qiyməti 30-35 qəpik, pərakəndə satışı isə 40 qəpik olub. Bu barədə sosial şəbəkələrdə məlumatlar yayılır. Təəccüblü hal deyil. Novruz bayramı hazırlıqları pik həddədir deyə, şirniyyatların hazırlanmasında ən çox istifadə edilən məhsulların qiymət artımı da "təbiidir".


(səh.6)




## Test üsulu mütləq təkmilləşdirilməlidir

### Ali məktəblərə qəbulun sadə forması tapılmalıdır


(səh.3)




## Azərbaycana qarşı təxribatlara hazırlıq gedir

### Qulamhüseyn Əlibəyli: "Kremlin köməyinə çatan elə özlərinin yaratdığı separatçı qüvvələrdir"


(səh.5)



# Ermənistan Zəngəzur dəhlizinin açılması öhdəliyindən yayınır

## Prezident İlham Əliyev Zirvə görüşündə deyib ki, Qarabağda qanunsuz erməni dəstələri və kriminal ünsürlər qalmaqdadır

**”2021-ci ilin iyun ayında Qarabağın tacı olan Şuşa şəhərində Türkiyə ilə Azərbaycan arasında Şuşa Bəyannaməsi imzalanıb və bizim əlaqələrimiz rəsmən müttəfiqlik səviyyəsinə qaldırılıb”.**

Bu sözləri Prezident İlham Əliyev martın 16-da Ankarada keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşündə çıxışında deyib. Dövlət başçısı qeyd edib ki, Türkiyə son 20 ildə Prezident Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə böyük və şərəfli yol keçib, dünyada söz sahibi olub, güc mərkəzinə çevrilib: ”Bu gün dünyada Türkiyə ilə hesablaşırlar və ona hörmət edirlər. Türkiyənin hərbi gücünü, müdafiə sənayesi sahəsində böyük uğurlarını indi dünyada hər kəs görür. Bu illər ərzində Türkiyədə davamlı sabitliyin təmin olunması, ölkənin inkişafı bütün türk dünyası üçün önəmli şərtdir. 2022-ci ildə Türk Dövlətləri Təşkilatının Səmərqənddə keçirilmiş Zirvə görüşündə Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın Türk Dünyasının Ali Ordeni ilə təltif edilməsi onun türk dünyasının gücləndirilməsində böyük xidmətlərini bir daha sübut edir. Əminəm ki, əziz qardaşım bundan sonra da uzun illər ölkələrimiz arasındakı qardaşlıq əsasında qurulmuş əlaqələrin daha da möhkəmləndirilməsinə böyük töhfələr verəcək”.

Prezident İlham Əliyev qeyd edib ki, Ermənistan həm də Zəngəzur dəhlizinin açılması öhdəliyindən yayınır: ”2022-ci ildə Praqa və Soçidə Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanımasına baxmayaraq, hələ də öz qoşunlarını tam olaraq Azərbaycan ərazilərindən çıxarmayıb. Qarabağda qanunsuz erməni dəstələri və kriminal ünsürlər qalmaqdadır.

Prezident İlham Əliyev bildirib ki, Ermənistan hələ də azərbaycanlı itkinlərin taleyi barədə məlumat verməkdən yayınır: ”Birinci Qarabağ müharibəsi nəticəsində 4 minə yaxın vətəndaşımız itkin düşüb. Onların demək olar ki, hamısı işgəncələrə məruz qalaraq qətlə yetirilib. Torpaqlarımız azad edildikdən sonra bir neçə yerdə kütləvi məzarlıq aşkar etmişik. Ermənistan hələ də azərbaycanlı itkinlərin taleyi barədə məlumat verməkdən yayınır”.

**“1991-ci ilə qədər bütün azərbaycanlılar indiki Ermənistan ərazisindən zorla qovulub”**

Dövlət başçısı deyib ki, 1991-ci ilə qədər bütün azərbaycanlılar indiki Ermənistan ərazisindən zorla qovulub: ”Türk dünyası türk dövlətlərinin hüdudları ilə məhdudlaşmır. Türk dünyası daha böyük coğrafiyanı əhatə edir. Dünyada yaşayan azərbaycanlıların sayı 50 milyondan çoxdur. Onlardan cəmi 10 milyonu müstəqil Azərbaycan Respublikasında yaşayır: ”Tarixi torpağımız olan Qərbi Zəngəzurun 1920-ci ilin noyabr ayında sovet hökumətinin qərarı ilə Azərbaycandan ayrılıb Ermənistana verilməsi türk dünyasının coğrafi cəhətdən ayrılmasına səbəb olub. 1991-ci ilə qədər bütün azərbaycanlılar indiki Ermənistan ərazisindən zorla qovulub. Ermənistan Qarabağda və Şərqi Zəngəzurda olduğu kimi, indiki Ermənistan ərazisində, yəni Qərbi Azərbaycanda da mədəni irsimizi, məscidləri, tarixi abidələrimizi dağıdıb. Azərbaycan ictimaiyyəti dəfələrlə UNESCO-ya indiki Ermənistanda Azərbaycan xalqının mədəni irsinin monitorinq edilməsi məqsədilə bu ölkəyə faktaraşdırıcı missiyanın göndərilməsi xahişi ilə müraciət edib və UNESCO-dan müsbət cavab gözləyir”.

Prezident vurğulayıb ki, Ermənistan da qarşılıq prinsipi əsasında Qərbi azərbaycanlıların hüquq və təhlükəsizliyini təmin etməlidir: ”Qərbi Azərbaycanda etnik təmizləməyə məruz qalan həmvətənlərimiz indi Qərbi Azərbaycan İcmasında birləşiblər. Onlar tarixi torpaqlara sülh yolu ilə qayıdışı qarşılarına məqsəd qoyublar. Qərbi Azərbaycan İcmasının hazırladığı Qayıdış Konsepsiyasına əsasən, indiki Ermənistan ərazisindən zorla deportasiya olunmuş azərbaycanlıların öz yurdlarına qayıdışı üçün müvafiq verifikasiya və zəmanət mexanizmi olan və hüquqi baxımdan məcburi olan beynəlxalq razılaşma əldə edilməlidir. Biz Azərbaycan dövləti olaraq Qarabağda yaşayan erməni sakinlərin fərdi hüquq və təhlükəsizliyini təmin edəcəyimiz kimi, Ermənistan da qarşılıq prinsipi əsasında Qərbi azərbaycanlıların hüquq və təhlükəsizliyini təmin etməlidir”.

**“Türk Dövlətləri Avropanın enerji təhlükəsizliyində əsas rol oynayır”**

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Türk Dövlətləri Təşkilatının Fövqəladə Zirvəsində çıxışı zamanı bildirib ki, Türk Dövlətləri TANAP da daxil olmaqla Cənub Qaz Dəhlizi vasitəsilə Avropanın enerji təhlükəsizliyi üçün əsas rol oynayır. O qeyd edib ki, Bakı-Tbilisi-Ceyhan Azərbaycan, Qazaxıstan və Türkmənistan neftini 16 ildir dünya bazarlarına çıxarır: ”Zəlzələ fəlakətinin açdığı yaraların öhdəsindən həmrəylik və əməkdaşlıqla gələcəyimizə inanıram. Bugünkü məsləhətləşmələrimizin türk dünyasının fəlakətlərə qarşı hazırlıq səviyyəsinin artırılması və bu sahədə əməkdaşlığın gücləndirilməsi baxımından xeyirli olacağına inanıram. Birliyimiz gücümüzdür”. Ərdoğan deyib ki, Ukraynadakı müharibənin dayandırılması üçün səylər davam edir: ”Rusiya və Ukrayna prezidentləri ilə daimi təmasdayam. Tərəfləri danışıqlar masasına geri döndərmək üçün əlimizdən gələni edəcəyik.

**TDT-nin növbəti Zirvə görüşü oktyabrda Qazaxıstanda keçiriləcək**

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev deyib ki, Türk Dövlətləri Təşkilatının (TDT) növbəti Zirvə görüşü bu ilin oktyabr ayında Qazaxıstanda keçiriləcək. Qeyd edib ki, Təşkilatın onuncu yubiley sammiti Türküstan şəhərində baş tutacaq: ”Bu ilin payızında TDT sədrliyi Qazaxıstana keçəcək. Bu müddət ərzində bir sıra əlamətdar tədbirlər keçirməyi planlaşdırırıq”.

**İsmayıl**

# YAP İdarə Heyətinin iclası keçirilib

## 38 nəfər partiya sıralarından xaric olunub





**Martın 16-da Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin videokonfrans formatında iclası keçirilib, 38 nəfər partiya sıralarından xaric olunub.**

Bu barədə ”Şərq”ə YAP-ın mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, iclasın müzakirəsinə Yeni Azərbaycan Partiyasının 2022-ci il üzrə maliyyə hesabatlarının təsdiq edilməsi, Yeni Azərbaycan Partiyasının üzvlüyündən xaric edilməsi təklif olunan şəxslərlə bağlı YAP rayon (şəhər) təşkilatlarının təqdimatlarına baxılması və cari məsələlər çıxarılıb.

YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Yeni Azərbaycan Partiyasının 2022-ci il üzrə maliyyə hesabatlarını müstəqil auditor rəyi ilə birlikdə iclas iştirakçılarına təqdim edib. Tahir Budaqov bildirib ki, ötən il yeni maliyyə-uçot sisteminə keçid olub və 2022-cü il üzrə partiyanın maliyyə hesabatları bu sistem əsasında hazırlanıb.

Müzakirələr zamanı YAP İdarə Heyətinin üzvləri Eldar İbrahimov və Arif Rəhimzadə çıxış edərək maliyyə hesabatının şəffaf və mükəmməl səviyyədə hazırlandığını vurğulayıblar. 2022-ci il üzrə maliyyə hesabatları İdarə Heyətinin üzvləri tərəfindən təsdiq olunub. YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov maliyyə hesabatlarının auditor rəyi ilə birlikdə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına təqdim ediləcəyini diqqətə çatdırıb.

Sonra Yeni Azərbaycan Partiyasının üzvlüyündən xaric edilməsi təklif olunan şəxslərlə bağlı YAP rayon (şəhər) təşkilatlarının təqdimatlarına baxılıb. YAP İdarə Heyətinin üzvləri Eldar İbrahimov, Amin İsmayılov, Rəşad Mahmudov, Mübariz Qurbanlı və Aynur Sofiyeva çıxış edərək məsələyə münasibət bildiriblər. 38 nəfərin müxtəlif səbəblərdən partiyanın nüfuzuna xələl gətirdiyinə görə YAP sıralarından xaric olunmasına dair qərar qəbul olunub.

Daha sonra partiyanın Gəncə şəhər təşkilatının sədri Ramil Orucovun səhhəti ilə əlaqədar tutduğu vəzifədən azad edilməsi barədə ərizəsinə baxılıb və müvafiq qərar qəbul edilib. YAP İdarə Heyətinin üzvləri Musa Quliyev və Eldar İbrahimov R.Orucova şəfa diləyərək partiyadakı fəaliyyətinə görə təşəkkürlərini bildiriblər.

Sonda YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri iclas iştirakçılarını qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik edib, onlara möhkəm cansağlığı və işlərində uğurlar arzulayıb.

# Türk dünyası tək ürək olur

## TDT liderləri Ankara Bəyannaməsini imzalayıblar

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə martın 16-da Ankarada keçirilmiş Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşündə Bəyannamə qəbul olunub.**

**”Şərq” Ankara Bəyannaməsini təqdim edir.**

”Türk Dövlətləri Təşkilatının (bundan sonra TDT adlandırılacaq) ”Fəlakət - Fövqəladə halların idarə edilməsi və humanitar yardım” mövzusunda Fövqəladə Zirvə görüşü Azərbaycan Respublikasının təşəbbüsü ilə 16 mart 2023-cü ildə Ankarada keçirilmişdir.

İclasa Türkiyə Respublikasının Prezidenti Zati-aliləri Rəcəb Tayyib Ərdoğan ev sahibliyi etmişdir və iclasda Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Əliyev, Qazaxıstan Respublikasının Prezidenti Zati-aliləri Kasım-Jomart Tokayev, Qırğız Respublikasının Prezidenti Zati-aliləri Sadır Japarov, Özbəkistan Respublikasının Prezidenti Zati-aliləri Şavkat Mirziyoyev, Türkmən xalqının Milli Lideri və Türkmənistanın Xalq Məsləhətinin Sədri Zati-aliləri Qurbanqulu Berdiməhəmmədov, Şimali Kipr Türk Respublikasının Prezidenti Zati-aliləri Ersin Tatar, Macarıstanın Baş naziri Zati-aliləri Viktor Orban, eləcə də Türk Dövlətləri Təşkilatının Baş katibi Zati-aliləri Kubanıçbek Omuraliev iştirak etmişlər.

Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları,

6 fevral 2023-cü ildə Türkiyənin cənub-şərq bölgəsində minlərlə insanın həyatına son qoyan, minlərlə insanın yaralanması ilə nəticələnən və ağır dağıntılara səbəb olan iki dağıdıcı zəlzələ ilə əlaqədar qardaş Türk xalqına bir daha dərin hüznlə başsağlığı verərək;

Üzv və Müşahidəçi dövlətlərin xalqlarına, eləcə də digər ölkələrə və beynəlxalq təşkilatlara/platformalara zəlzələlərdən daha çox zərər çəkmiş ərazilərə dərhal yardım əlini uzatdıqlarına görə minnətdarlıqlarını bildirərək;

TDT-nin Üzv və Müşahidəçi Dövlətlərinin Türkiyədəki dağıdıcı zəlzələlərdən sonra axtarış-xilasetmə qruplarının sürətli şəkildə yerləşdirilməsini təqdir edərək;

Birləşmiş Millətlər Təşkilatı tərəfindən Türkiyə üçün Təcili Zəlzələ Yardımı Çağırışının və Türkiyə və Suriyaya qlobal dəstəyi səfərbər etmək məqsədilə Avropa İttifaqı (Aİ) Komissiyası və Avropa İttifaqı (Aİ) Şurasının İsveç Sədrliyi tərəfindən birgə təşkil olunacaq Beynəlxalq Donorlar Konfransının elan edilməsini alqışlayaraq;

Axtarış və xilasetmə qruplarının sürətli şəkildə yerləşdirilməsinin, habelə fəlakətlərə cavab olaraq humanitar yardımın çevik çatdırılmasının vacibliyini vurğulayaraq;

”Türk Dünyasına Baxış 2040” sənədinə uyğun olaraq TDT regionunda və dünyada təbii fəlakətlərin qarşısının alınması, cavab verilməsi və aradan qaldırılması üçün ikitərəfli və çoxtərəfli əməkdaşlığın və koordinasiyanın zəruriliyinə diqqət çəkərək;

2021-ci il tarixli TDT-nin 8-ci Zirvə görüşünün Bəyannaməsinin 51-ci bəndinə uyğun olaraq, TDT-nin Mülki Müdafiə Mexanizminin yaradılması ilə bağlı 21 dekabr 2022-ci ildə Ankarada AFAD-da keçirilmiş TDT-nin Fəlakət və Fövqəladə Halların İdarəedilməsi üzrə Nazirlərinin Görüşünün nəticələrini alqışlayaraq;

TDT-nin 8-ci Zirvə görüşünün Bəyannaməsində təsdiq olunduğu kimi, müvafiq nazirliklərə yaşıl texnologiyalar və ağıllı şəhərlər üzrə əməkdaşlıq təşəbbüsü barədə göstəriş vermək qərarını xatırladaraq;

”Türk Dünyasına Baxış 2040” sənədində qeyd olunan baxış və məqsədlərin həyata keçirilməsində türk dövlətlərinin əldə etdiyi böyük siyasi, iqtisadi və sosial-mədəni tərəqqini yüksək qiymətləndirərək;

Türk dünyasının dəyər və maraqlarını təşviq etmək məqsədilə TDT-nin fəaliyyətini dəstəkləməyə sadiq olduqlarını təsdiq edərək;

Türk dünyasının ticarət, nəqliyyat, investisiya, turizm, regional əlaqə və strateji insan resurslarının idarə edilməsi sahələrində əməkdaşlığının və koordinasiyasının dərinləşdirilməsi və gücləndirilməsində TDT-nin daim artan mərkəzi rolunu vurğulayaraq;

Regional və beynəlxalq forumlarda əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün bütün imkanları nəzərdən keçirməyi üzərinə götürərək;

11 noyabr 2022-ci ildə keçirilmiş və TDT-nin transformasiyasında və Türk dünyasının gələcək inteqrasiyasında daha bir əlamətdar hadisə olan tarixi Səmərqənd Zirvə görüşünün uğurlu təşkil olunmasına görə Özbəkistan Respublikasının sədrliyini yüksək qiymətləndirərək; və Sədrliyin həmrəyliyin gücləndirilməsinə, eləcə də TDT Üzv və Müşahidəçi Dövlətlərinin xalqlarının sülh, sabitlik, təhlükəsizlik və rifahının təmin edilməsinə yönəlmiş fəaliyyətini dəstəkləmək əzmində olduqlarını vurğulayaraq;

Respublikanın yaradılmasının yüzilliyi və Türkiyə xarici siyasət xidmətinin əsasının qoyulmasının beş yüzilliyi münasibətilə Türkiyə Respublikasını təbrik edərək;

Novruz bayramı və Müqəddəs Ramazan bayramı münasibətilə bütün Üzv və Müşahidəçi Dövlətlərin xalqlarına rifah və firavanlıq arzularını bildirərək;

Bəzi ölkələrdə müsəlmanların müqəddəs dəyərlərinə qarşı son vaxtlar törədilən nifrət cinayətlərindən təşvişə düşərək; və bununla əlaqədar olaraq, müxtəlif inanclara və mədəniyyətə malik insanlar arasında dinc yanaşı yaşama, dialoq və harmoniyanı qorumaq üçün müxtəlif mədəniyyətlər arasında qarşılıqlı hörmətin mühüm əhəmiyyətini vurğulayaraq;



Dövlət başçıları Türk dünyasının dəyər və maraqlarını təşviq etmək məqsədilə TDT-nin fəaliyyətini dəstəkləməyə sadiq olduqlarını təsdiq ediblər

bəyan etdilər ki, onlar:

1. Zəlzələlərdən sonra bərpa və yenidənqurma işlərində Türkiyə Xalqı və Hökuməti ilə həmrəylik ifadə etdilər;

2. Üzv və Müşahidəçi Dövlətlər, eləcə də dünyanın hər yerindən digər ölkələr və beynəlxalq təşkilatlar/platformalar tərəfindən yerləşdirilmiş fövqəladə hallara cavab qrupları tərəfindən fəlakətdən sonra həyata keçirilən fədakar axtarış və xilasetmə əməliyyatlarını alqışladılar; və aramsız səyləri ilə bir çox insanın həyatını xilas edən dəstələrə minnətdarlıqlarını bildirdilər;

3. TDT-yə Üzv və Müşahidəçi Dövlətlərin milli tibbi xilasetmə qrupları arasında əməkdaşlığı gücləndirməyə və birgə potensialın gücləndirilməsi fəaliyyətlərində iştirak etməyə hazır olduqlarını bildirdilər;

4. Zəlzələlərdən zərər çəkmiş şəxslərə nə zaman ehtiyac duyulduğu təqdirdə, humanitar yardım göstərməyə davam etməyə hazır olduqlarını təkrarladılar;

5. 20 mart 2023-cü ildə Brüsseldə keçirilməsi nəzərdə tutulan Aİ Komissiyası və Aİ Şurasına İsveç sədrliyi tərəfindən birgə təşkil olunacaq Beynəlxalq Donorlar Konfransında iştirak etmək üçün üzvlərini təşviq etdilər;

6. Baş verə biləcək mümkün fəlakətlər və fövqəladə hallar zamanı ehtiyacların səmərəli, əlaqələndirilmiş və vaxtında həll edilməsi üçün TDT-nin milli fəlakətlərin idarə edilməsi qurumları arasında əməkdaşlığı gücləndirmək barədə razılığa gəldilər və bu xüsusda Türk Dövlətləri Təşkilatının Mülki Müdafiə Mexanizminin yaradılması haqqında Sazişin Türk Dövlətləri Təşkilatının Qazaxıstan Respublikasının Türkistan şəhərində keçiriləcək 10-cu Zirvə görüşünədək imzalanması üçün aidiyyəti qurumlara tapşırıq verdilər;

7. Qeyd etdilər ki, fəlakətdən sonrakı ehtiyacların qiymətləndirilməsi, təsirə məruz qalmış bölgələrin bərpası və yenidən qurulması prosesi ərzində Türkiyəyə dəstəyini davam etdirməkdə beynəlxalq ictimaiyyət üçün yaxşı istinad nöqtəsi olacaq; bu səyləri daha yaxşı bərpa etmək və enerji səmərəliliyi prinsipləri əsasında qurmaq istəyini/əzmini alqışladılar; Türk dünyasında daha dayanıqlı, davamlı və yaşıl inkişafın vacibliyini vurğuladılar və ictimai malların canlandırılmasında ağıllı şəhərlərin xüsusi rolunu tanıdılar;

8. Müşahidəçi Dövlətlərin TDT-nin fəaliyyətlərinə aktiv cəlb olunmasını qiymətləndirdilər və ŞKTR-nin TDT-nin Fövqəladə Zirvə görüşündə iştirakını qeyd etdilər;

9. TDT Üzv Dövlətləri arasında ticarət və iqtisadi əməkdaşlığı gücləndirmək üçün onların iqtisadi potensialını səfərbər etmək məqsədi daşıyan Türk İnvestisiya Fondunun yaradılması haqqında Sazişin imzalanmasını alqışladılar;

10. Qazaxıstan, Türkmənistan və Türkiyədə qarşıdan gələn ümumi və prezident seçkilərinin, eləcə də Özbəkistanda referendumun uğurla başa çatacağına əmin olduqlarını bir daha təsdiq etdilər;

11. Türkiyə Respublikasının Prezidenti Zati-aliləri Rəcəb Tayyib Ərdoğana Türk dünyasının birliyi və həmrəyliyinə, eləcə də təhlükəsizliyi və rifahına verdiyi güclü və davamlı töhfələrinə, Türk Dövlətləri Təşkilatının birlik ruhunun gücləndirilməsində möhkəm liderliyinə görə təşəkkürlərini bildirir və gələcək seçkilərdə uğurlar arzu edirlər;

12. UNESCO tərəfindən ”Dünya Türk Dili Günü” elan edilməsi ilə bağlı tam dəstəklərini bir daha təsdiq etdilər;

13. Bütün müsəlmanları incidən və gələcəkdə yeni irqçi, ksenofob və islamofob təxribat və hücumlara yol aça biləcək müqəddəs kitabımız Qurani-Kərimə qarşı son vaxtlar nifrət zəminində törədilən cinayətləri ən kəskin şəkildə qınadılar;

14. Azərbaycan Respublikasının İrandakı səfirliyinə qarşı törədilən ölümcül silahlı hücumu pislədilər və bütün təqsirkarların məsuliyyətə cəlb edilməsi üçün tez və hərtərəfli araşdırmanın aparılmasına çağırış etdilər;

15. TDT Katibliyinin fəaliyyətində əldə edilmiş mühüm nailiyyətləri təqdir etdilər və Üzvlər tərəfindən qəbul olunmuş sənədlərdə təyin və təsbit edilmiş vəzifələrinin həyata keçirilməsi üçün Katibliyin potensialını daha da gücləndirmək əzmində olduqlarını bir daha vurğuladılar;

16. TDT Üzv dövlətlərin Xarici İşlər nazirliklərinə və digər aidiyyəti qurumlara Qazaxıstanda keçiriləcək TDT-nin qarşıdan gələn 10-cu Zirvə görüşünə hazırlıq işlərini sürətləndirmək üçün göstəriş verməyə razılaşdılar;

Qazaxıstan TDT-nin 10-cu Zirvə görüşünə 2023-cü ilin oktyabr ayında Qazaxıstan Respublikasının Türkistan şəhərində ev sahibliyi etməyə hazır olduğunu bir daha təsdiq etdi.

TDT-nin Dövlət Başçıları Türkiyə Respublikasının Prezidenti Zati-aliləri Rəcəb Tayyib Ərdoğana TDT-nin Ankara Fövqəladə Zirvə görüşünün uğurla yekunlaşan müzakirələrinə sədrlik etdiyinə görə dərin təşəkkür bildirir və Türkiyə Hökumətinin və xalqının səmimi qonaqpərvərliyini yüksək qiymətləndirdilər.

TDT-nin Baş katibinə bu Bəyannamədə nəzərdə tutulan qarşılıqlı fəaliyyəti və birgə səyləri əlaqələndirmək tapşırığı verilir.

16 mart 2023-cü ildə Ankara şəhərində Azərbaycan, qazax, qırğız, türk və özbək dillərində imzalanmışdır.

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev**

**Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev**

**Qırğız Respublikasının Prezidenti Sadır Japarov**

**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan**

**Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev”.**



# Türk dövlət başçılarının "Ankara zirvəsi"ndən görünən mənzərə

## Liderlər sıx əməkdaşlıq və koordinasiya mexanizmlərinin yaradılmasına diqqət çəkiblər

**Prezident İlham Əliyevin təşəbbüsü ilə martın 16-da Ankarada Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşü keçirilib. Öncə Türkiyədə baş vermiş dağıdıcı zəlzələnin törətdiyi fəsadlar, qardaş ölkəyə edilən humanitar yardımlar barədə videoçarx nümayiş olunub. Təbii fəlakət nəticəsində həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**

Liderlərin çıxışlarından sonra Ankara Bəyannaməsi imzalanıb. 16 bənddən ibarət Ankara Bəyannaməsində Zirvə görüşünün TDT üçün faydalı olacağı vurğulanıb. Türkiyənin cənub-şərqində baş verən zəlzələ bəyannamədə geniş yer alıb, liderlər zəlzələlərdən sonra bərpa işlərində Türkiyə xalqı və hökuməti ilə həmrəy olduqlarını ifadə ediblər. Bundan əlavə, onlar təşkilata üzv və müşahidəçi olan dövlətlər, eləcə də dünyanın hər yerindən gələn axtarış-xilasetmə qruplarının işlərini yüksək qiymətləndirib. TDT liderləri Qazaxıstan, Türkmənistan və Türkiyədə qarşıdan gələn parlament və prezident seçkilərinin, Özbəkistanda keçirilən referendumun uğurla nəticələnəcəyinə əminliklərini bir daha təsdiq ediblər. Onlar həmçinin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana Türk Dünyasının birlik və həmrəyliyinə, təhlükəsizliyinə və rifahına güclü və qalıcı töhfələrinə, birlik ruhunun gücləndirilməsində güclü liderliyinə görə minnətdarlıqlarını bildirib, qarşıdan gələn seçkilərdə ona uğurlar arzulayıblar.

Qeyd edək ki, tədbirin Şuşada keçirilməsi nəzərdə tutulmuşdu. Lakin Türkiyədə baş vermiş dəhşətli zəlzələ ilə əlaqədar Prezident İlham Əliyev qardaş ölkəyə dəstək məqsədilə Zirvə görüşünün Ankarada keçirilməsi təklifi ilə çıxış edib. Digər iştirakçı ölkələrin rəhbərləri ilə razılaşdırıldıqdan sonra bununla bağlı müvafiq qərar qəbul olunub. Bu, bir daha Azərbaycan-Türkiyə qardaşlığının, türk dünyasında qarşılıqlı dəstəyin və hörmətin bariz nümunəsidir. Məlumat üçün əlavə edək ki, "Fəlakət - Fövqəladə halların idarə edilməsi və humanitar yardım" mövzusuna həsr olunan Zirvə görüşü Türkiyənin cənub və cənub-şərq bölgələrində baş verən zəlzələ nəticəsində yaranan fövqəladə vəziyyətlə bağlı məsələlərin ən yüksək səviyyədə müzakirə edildiyi platformadır. Liderlər fəlakətlərlə mübarizədə Türk Dövlətləri Təşkilatı daxilində çoxtərəfli sıx əməkdaşlıq və koordinasiya mexanizmlərinin yaradılmasına diqqət çəkiblər. Həmçinin regionda mövcud çağırışlarla bağlı məsləhətləşmələr aparıblar. Ümumiyyətlə, son illər TDT-yə üzv ölkələr arasında əlaqələr və əməkdaşlıq getdikcə güclənir. Ötən il TDT-nin Səmərqənddə baş tutmuş Zirvə görüşündə Prezident İlham Əliyev türk dövlətlərinin bir-birinin milli maraqlarını nəzərə alaraq bundan sonra da qarşılıqlı dəstək və həmrəylik göstərməli olduqlarını bildirmişdi. Qeyd etmişdi ki, türk dövlətləri siyasi, iqtisadi, ticari, mədəni, nəqliyyat, energetika, rəqəmsal transformasiya, kənd təsərrüfatı, turizm sahələri ilə yanaşı, təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə də əməkdaşlığı fəallaşdırmalıdır. Türk dövlətlərinin daha da yaxınlaşması, ölkələrimiz arasında münasibətlərin bütün sahələr üzrə daha da dərinləşməsi istiqamətində Azərbaycan tərəfindən real addımlar atılır. Bu proses sözdə deyil, əməldə həyata keçirilir. Qardaş Türkiyədə baş vermiş son zəlzələr zamanı məhz Azərbaycan Türkiyəyə ən çox dəstək göstərən ölkələrdən biri olub. Bu, Azərbaycan-Türkiyə qardaşlığının növbəti bariz təzahürüdür. Sammitin məqsədi həm də təbii fəlakətlərin nəticələrinin aradan qaldırılmasında praktiki əməkdaşlığın müzakirəsi, eləcə də qardaş Türkiyədə baş vermiş dəhşətli zəlzələnin fəsadlarının aradan qaldırılmasında dəstəyin nümayiş etdirilməsidir. Azərbaycan artıq bir çox beynəlxalq platformaların təşəbbüskarına və ev sahibinə çevrilib. Bu ay dövlət başçısı İlham Əliyevin sədrliyi ilə Qoşulmama Hərəkatının Bakıda baş tutmuş Təmas qrupunun Zirvə görüşü, daha sonra 10-cu Qlobal Bakı Forumunun keçirilməsi, dövlət başçısının TDT-nin fövqəladə Zirvə görüşündə iştirakı Prezident İlham Əliyevin fəal, uğurlu xarici siyasətinin növbəti bariz nümunəsidir. Bütün bunlar ölkəmizin beynəlxalq səviyyədə milli maraqlarının davamlı şəkildə irəlilədilməsi və imicinin daha da artırılmasına xidmət edir.

**Ədalət Partiyasının sədr müavini Elxan Şükürlü deyib ki, Ankarada Türk Dövlətləri Təşkilatının (TDT) fövqəladə toplantısının keçirilməsi 14 may seçkilərindən öncə məsləhətləşməyə ehtiyacın olmasından əlavə, həm də bu ittifaqda birləşən ölkələrin rəhbərlərinin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana dəstəklərinin beynəlxalq aləmə nümayişi sayıla bilər:** "TDT-də birləşən ölkə rəhbərləri indi hər kəsdən daha yaxşı anlayırlar ki, Türkiyədəki 14 may seçkilərində Qərbin açıq-aşkar dəstək verdiyi "6-lı masa"nın namizədi qalib gələrsə, bu, TDT-nin fəaliyyətinə də ciddi təsir göstərəcək. Çünki TDT-də birləşmiş ölkələr həm də Qərbin əsas hədəf taxtasına çıxardığı Rusiya ilə çox yaxşı əlaqələri olan, Ukrayna üzərində gedən Qərb-Rusiya savaşında tərəfə çevrilmək istəməyən ölkələrdir. Əgər Türkiyədə "Qərb masası"nın namizədi qalib gələrsə, bu, TDT-ni də zorən bu savaşda tərəfə çevrilməyə sürükləyəcək. Qərbin özünə düşmən saydığı Çin-Rusiya-İran üçbucağında yerləşmiş TDT coğrafiyasına isə Qərb maraqları naminə yeni savaş meydanına çevrilmək qətiyyən gərəkli deyil və "Bir Kəmər - Bir Yol" layihəsindən daha çox qazanacaq bu dəhlizə yalnız yeni fəlakətlər gətirə bilər. İndi 14 may seçkilərində Ərdoğanın qələbə qazanması təkcə "Cümhur İttifaqı"nın yox, həm də "Türk İttifaqı"nın, o cümlədən də bu coğrafiyayla həmsərhəd Rusiya, Çin, İran kimi anti-Qərb dövlətlərin də həyati maraqlarıyla birbaşa bağlıdır".

**Millət vəkili Vüqar Bayramov deyib ki, son illər türk dövlətləri arasında iqtisadi əlaqələrin sürətli inkişafı və ticarət dövriyyəsində kəskin artımlar müşahidə olunur. Deputat bildirib ki, 2022-ci ildə Azərbaycan ilə türk dövlətləri arasında ticarət dövriyyəsi əvvəlki il ilə müqayisədə 70 faiz artaraq 5 milyard 23 milyon dollardan 7 milyard 170 milyon dollaradək yüksəlib:** "Ötən il bütün Türk dövlətləri ilə ticarət dövriyyəmizdə artım qeydə alınıb. Qazaxıstan ilə dövriyyəmiz ötən il əvvəlki ilə nisbətən 4.4 dəfə artıb. Türkmənistan ilə dövriyyədə 5.1 dəfə artım qeydə alınıb. Ticarət dövriyyəmiz ötən il 105 milyon 23 min dollardan 535 milyon 397 min dollara çatıb. Qardaş Türkiyə ilə dövriyyəmiz ötən il 6 milyard dollara yaxınlaşıb. 2021-ci ildə 4 milyard 661 milyon dollar olan ticarət dövriyyəsi ötən il 5 milyard 842 milyon dollaradək yüksəlib. Ticarət dövriyyəsinin böyüməsi birbaşa türk dövlətləri arasındakı münasibətlərin xüsusən son 2 ildə dərinləşməsi ilə bağlıdır. Azərbaycanın əldə etdiyi zəfərdən sonra türk dövlətləri strateji əməkdaşlığı daha da gücləndiriblər. Azərbaycanın türk dövlətləri ilə ticarət dövriyyəsinin yaxın illərdə 15 milyard dollaradək yüksəlməsi hədəflənir. 21-ci əsr türk dünyasının əsridir".

**İsmayıl Qocayev**

# Heydər Əliyev Fondu böyük məktəbdir

## Azər Ayxan: "Onun Azərbaycana uzun müddət faydası toxunacaq"

**Türkiyə Respublikasının cənub-şərqində baş vermiş güclü zəlzələ, təbii fəlakət nəticəsində çoxsaylı insan tələfatının olması Azərbaycan xalqını dərindən sarsıdıb.**




Dəhşətli hadisə baş verən andan etibarən Azərbaycan dövləti qardaş Türkiyənin yanında olduğunu nümayiş etdirdi. Azərbaycan hər zaman olduğu kimi bu dar gündə də qardaşının köməyinə çatan ilk ölkə oldu.

Heydər Əliyev Fondu Türkiyədə baş verən zəlzələyə birinci reaksiya verən təşkilatlardan oldu. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşkilatçılığı ilə Türkiyədəki zəlzələ bölgəsinə 2518 çadır, 135 elektrik generatoru, 19 min 894 ədəd yataq və yataq ləvazimatı, 404 min 58 adda dərman və tibbi ləvazimat, 143 min 955 dəst isti geyim, 2653 qızdırıcı avadanlıq, 6603 qutu ərzaq və qida məhsulu və digər zəruri əşyalar alınaraq göndərilib. Ümumilikdə Heydər Əliyev Fondu tərəfindən Türkiyənin zəlzələ bölgəsinə 9 milyon 485 min 563 manat (5 milyon 579 min 743 dollar) məbləğində yardım göstərilib.

**Heydər Əliyev Fondunun fəaliyyətini "Şərq"ə dəyərləndirən Əməkdar jurnalist Azər Ayxan bildirib ki, Mehriban Əliyevanın rəhbərlik etdiyi bütün layihələr uğurludur:** "İstər Heydər Əliyev Fondunun rəhbəri kimi, istərsə də ölkənin birinci vitse-prezidenti vəzifəsində təmsilçiliyi Azərbaycanın gələcəyinə böyük töhfələr verir. Bu istiqamətdə görülən işlər həm indi, həm də gələcək üçün nəzərdə tutulub. Heydər Əliyev Fondu Azərbaycanın tarixi keçmişi ilə bağlı da ciddi layihələrə imza atıb. Həmçinin ölkəmizin mədəni irsinin qorunmasında, təbliğində, gələcək nəsillərə keyfiyyətli şəkildə çatdırılmasında mühüm rol oynayan institutdur. Sözügedən Fond sözün əsl mənasında bir məktəbdir və onun Azərbaycana uzun müddət faydası toxunacaq.

Heydər Əliyev Fondu Türkiyəyə humanitar dəstək göstərib. Türkiyə-Azərbaycan qardaşlığının hansı səviyyədə olduğunun bariz nümunəsidir. Mehriban Əliyevanın şəhid ailələri, qazilərlə, aztəminatlı ailələrə yanaşması gözönündədir. Bir dəfə Prezident İlham Əliyev və Mehriban xanım şəhid ailəsində qonaq olmuşdular. Ailə ilə sağollaşanda M.Əliyeva şəhid anasını qucaqlayıb göz yaşları axıtdı. Bu, qardaşının yaxşı gününə sevinən, pis günündə, kədərinə şərik çıxan Azərbaycanın ümumiləşmiş qadın obrazıdır. O, eyni fədakarlığı Türkiyədəki zəlzələ zamanı sərgilədi".

**Aygün**

# "Kim kimin üstündədir?"

## Zaxarova Paşinyanın KTMT ilə bağlı bəyanatına kinayə ilə cavab verib

**"Ermənistan Baş naziri Nikol Paşinyanın KTMT ilə bağlı bəyanatını görəndə Bulqakovla Stanislavskinin iki məşhur sitatı yadıma düşdü".**



APA-nın Moskva müxbirinin məlumatına görə, bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bu gün keçirdiyi brifinqdə Ermənistan Baş naziri Nikol Paşinyanın "Təhlükə var ki, KTMT-Ermənistandan gedəcək" bəyanatına münasibət bildirərkən deyib.

"Mən bu bəyanatı, sitatı görəndə, başqa iki sitat yadıma düşdü: Klassiklərdən Bulqakov (Mixail Bulqakov-red.) "Kim kimin üstündə olub" ("kto na kom stoyal") və Stanislavskinin (Konstantin Stanislavski) "İncəsənəti özündə sevməlisən, Özünü incəsənətdə yox". Həqiqətən də, kim kimin üstündədir?", Rusiya XİN sözçüsü Paşinyanın KTMT bəyanatına kinayə ilə cavab verib.

Zaxarova ötən ilin sonunda KTMT missiyasının Ermənistanda səfərdə olduğunu, erməni həmkarlarının KTMT-nin digər üzvləri üçün problemli olan tələbləri səbəbindən yekun qərar qəbul etmək olmadığını xatırladıb.

# Test üsulu mütləq təkmilləşdirilməlidir

## Ali məktəblərə qəbulun sadə forması tapılmalıdır

**Ümumtəhsil məktəbləri üzrə buraxılış imtahanları xeyli söz-söhbət, narazılıq yaratdı. Vəziyyət o həddə çatıb ki, hətta test üsulunun ümumiyyətlə ləğvi istənilir. Səbəblərə keçəcəyik. Öncə Dövlət İmtahan Mərkəzinin buraxılış imtahanlarında test suallarının yanlışlığı iddialarına və narazılıqlara münasibətini açıqlayaq:**

"DİM-in məlumatında qeyd olunur ki, 5 və 12 mart 2023-cü il tarixlərində keçirilən tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanlarından sonra sosial şəbəkələr və ictimaiyyət arasında müəyyən müzakirələr aparılır. Buraxılış imtahanları iştirakçıların əhatə dairəsinə görə ən kütləvi imtahanlar hesab olunur, həmçinin imtahanların nəticələri orta məktəbdə təhsil alan şagirdlərin yekun attestasiyası, ali və orta ixtisas təhsili müəssisələrinə qəbul zamanı nəzərə alınır. Bu baxımdan imtahanlara marağın yüksək olması və müzakirələrin aparılması başadüşüləndir və Dövlət İmtahan Mərkəzi tərəfindən anlayışla qarşılanır. Lakin müəyyən məqamları bir daha imtahan iştirakçılarının diqqətinə çatdırmaq istəyirik. Tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanlarına daxil olan fənlərin proqramı 5-11-ci siniflərdə tədris olunan mövzuları əhatə edir. 11-ci sinifdə fevral ayından sonra keçirilən mövzular imtahanda istifadə olunmur. Buraxılış imtahanlarında istifadə edilən bütün test tapşırıqları ümumtəhsil müəssisələrində qüvvədə olan dərsliklər əsasında hazırlanır və müvafiq fənlər üzrə təhsil proqramı - kurikulumun təlim nəticələrinə uyğun bilik və bacarıqları yoxlamağa xidmət edir. Məlumat üçün bildirirk ki, respublikamızın təhsil sistemində 2008-ci ildən etibarən yeni təhsil proqramları (kurikulumlar) tətbiq olunur. Təhsilin məzmunu dəyişərək "yaddaş məktəbi"ndən "təfəkkür məktəbi"nə keçilib. Bu isə o deməkdir ki, tədris prosesində məqsəd təkcə biliklərin verilməsi deyil, bacarıqların da formalaşdırılması olmalıdır. Bu əsas götürülərək buraxılış imtahanlarında Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə birgə hazırlanmış imtahan modeli tətbiq olunur. Yeni imtahanda qapalı tipli tapşırıqlarla yanaşı, ətraflı yazılı cavab tələb edən tapşırıqlardan da istifadə olunur. Bu tapşırıqlar meyarlar əsasında qiymətləndirilir və bu, imtahan iştirakçılarının bilik və bacarıqlarının daha dəqiq müəyyən olunmasına imkan verir. Onu da bildiririk ki, belə tapşırıqlar aşağı siniflərdən başlayaraq dərsliklərdə istifadə olunur. Yuxarıda qeyd olunanlara uyğun olaraq 11-ci siniflər üçün buraxılış imtahanı artıq beşinci ildir ki, yeni model əsasında keçirilir və bu imtahanlar layihələndirilərkən həm orta məktəblərdə keçirilən monitorinq imtahanlarının, həm də son dörd ildə keçirilən buraxılış imtahanlarının elmi-statistik göstəricilərinə aid təhlillərdən də istifadə edilir. Bu təhlillər isə onu göstərir ki, imtahanla bağlı göstəricilər müxtəlif hazırlıq səviyyəsinə malik şagirdlərdən gözlənilən nəticələrə uyğundur və bu baxımdan illər üzrə göstəricilər bir-birinə çox yaxındır. Müqayisə üçün 2019-2022-ci illərdə keçirilən buraxılış imtahanlarında iştirak edən orta statistik şagirdlərin topladıqları ümumi balları da təqdim etmək istəyirik. Buraxılış imtahanında iştirak edən orta statistik şagird 2019-cu ildə 112.78, 2020-ci ildə 115.82, 2021-ci ildə 115.93, 2022-ci ildə isə 111.72 bal toplayıb. Bu il keçirilən imtahanlarda istifadə edilən tapşırıqlar da iştirakçıların cavablarının statistik təhlili əsasında bir daha araşdırılacaq və bu təhlil əsasında müvafiq məlumatlar ictimaiyyətə təqdim olunacaq. Bundan əlavə, hamıya məlumdur ki, DİM tərəfindən aparılan təhlillər nəticəsində testlərdə hər hansı uyğunsuzluq aşkar olunarsa, imtahan iştirakçılarının xeyrinə qərar qəbul olunur. Həmçinin yazılı cavab tələb edən tapşırıqların qiymətləndirilməsi məqsədilə seçilmiş yazı işləri nümunəsi əsasında meyarlar dəqiqləşdirilərək ehtiyac yarandığı təqdirdə onlarda müvafiq düzəlişlər edilir. Nəticələr elan olunduqdan sonra iştirakçıların müraciətlərinə baxılması üçün apellyasiya komissiyası da yaradılır".

DİM Direktorlar Şurasının sədri Məleykə Abbaszadənin buraxılış imtahanları ilə bağlı geniş mətbuat konfransı keçirəcəyi gözlənilir.

**Millət vəkili Fazil Mustafa isə test üsulunun təkmilləşdirilməsini vacib sayır:** "Ali məktəblərə qəbulda tətbiq edilən test üsulu heç bir halda uzunmüddətli və toxunulmaz formada qalmamalıdır. Ali məktəblərə qəbulun sadə forması tapılmalıdır. Mövcud qaydalara dəyişiklik edilməlidir. Əsas diqqət isə qəbula deyil, məktəbi bitirməyə yönəlməlidir". "Bakupost.az"a açıqlamasında millət vəkili hazırlığa getməyən şagirdin məktəbi rahatlıqla tamamlayıb attestat ala bilmədiyini qeyd edib: "Təbiq edilən test üsulu predmet haqqında geniş dünyagörüşünə sahib insan yetişdirmir, istər-istəməz, əzbərçilik çərçivəsinin içinə yönləndirir. Cavabları variantların birində göstərilən test forması savadlı insan yetişdirə bilməz. Savad yalnız konkret sahəyə aid biliklərə yiyələnmək deyil, həm də fikrin ifadəsidir, dolğun yazılı təsviridir, ümumi elmi dünyagörüşüdür. Ona görə də ən yüksək balla daxil olmuş insanların əksəriyyəti normal esse yaza bilmir, mütaliə vərdişinə sahib deyil və nəticədə də tam yetkin mütəxəssis kimi yetişməkdə çətinlik çəkir. Test üsulu ilə universitetə qəbul olan gənclərin çoxu bədii ədəbiyyat oxumur. Gənclər arasında kütləvi bir tənbəlləşmə aurası görürəm və bu məni çox üzür".




Dünyanın heç bir ölkəsində abituriyent 5-6 fəndən imtahan vermir

**Test üsulu ləğv edilməli, yoxsa təkmilləşməlidir? Təhsil problemləri üzrə ekspert Elçin Əfəndi "Şərq"ə açıqlamasında qeyd etdi ki, test üsulu əksər ölkələrdə fərqlidir:**

- Ondan başlayaq ki, Azərbaycanda buraxılış imtahanları 2019-cu ildən kurikulum əsasında keçirilir. Qiymətləndirmə də kurikulum əsasında aparılır. Son illərdə imtahanlarda açıq tipli sualların sayı artıb. Bu da abituriyentlərə çətinlik törədir. Müəllimlər də narazıdır, şagirdlər də, valideynlər də. Açıq tipli tapşırıqların həllinə daha çox vaxt sərf olunur, qapalı - cavabı variantlarla verilən suallara alışmış şagirdlər açıq tipli tapşırıqların həllində çətinlik çəkirlər. Çünki repetitor hazırlığı da daha çox qapalı suallar üzərində qurulur. Suallar və cabablar demək olar uşaqların beynində kodlaşır. Əzbərçilik dediyimiz budur. Lakin DİM buraxılış imtahanlarında 100 mindən artıq şagirdin iştirakını nəzərə alaraq sualların formatını buna uyğun tərtib etməliydi. Ümumi təhlillər aparıldıqdan sonra test tapşırıqlarında elmi və ya texniki xəta olduğu aydınlaşacaq. Hələ ki, bu məsələdə dəqiq fikir bildirmək mümkün deyil.

**Test üsulunun ləğvi və ya təkmilləşdirilməsinə gəlincə, Elçin Əfəndi qeyd etdi ki, dünyanın heç bir ölkəsində abituriyent 5-6 fəndən imtahan vermir:**

- Bizə ən yaxın, qardaş Türkiyəni misal çəkim. Türkiyədə YÖS və AES imtahan sistemi var. Buna müvafiq olaraq da abituriyentlər 2, ya da 3 əsas fəndən - məntiq və riyaziyyat və Türk dilindən imtahan verirlər. Məntiqi təfəkkür güclüdürsə, deməli o, yaxşı həkim də ola bilər, yaxşı hakim də, yaxşı müəllim də. Baxın, bu günlərdə məlum oldu ki, 2 gənc qızımız (Fidan Qarayeva, Dəniz Səttarlı) ABŞ-nin Massaçusets Texnologiya İnstitutuna qəbul olunublar. Biri kimya, biri də riyaziyyat üzrə. Beynəlxalq imtahan sistemləri fərqlidir. Konkret fənn üzrə imtahan verib, uyğun balı toplandınsa, ali məktəb tələbəsi olursan. Bizdə isə şagirdlər, xüsusən buraxılış siniflərində, 6-7 fənn üzrə hazırlaşır. Valideynlər 400 manatdan 2000 manatadək xərc çəkirlər. Çünki orta məktəblərdə təhsilin keyfiyyəti aşağıdır, valideynlər məcburdur övladını məktəbdən kənarda hazırlaşdırsın. Niyə bizdə də ali məktəblərə qəbulda 1-2, maksimum 3 fəndən imtahan olmasın?!. Qəbul imtahanlarında fənlərin sayı mütləq minimallaşdırılmalıdır. Bundan başqa, dünyanın heç bir ölkəsimdə ixtisas qrupu deyilən bir şey yoxdur. Abituriyentlər bəri başdan bir ixtisas qrupu daxilində qalmağa məhkum edilir, öncə imtahan verir, əldə etdiyi nəticəyə uyğun ixtisas seçir. Abituriyentlər bir ixtisas qrupunda qalmağa məhkum olduğundan məcburdur oradakı ixtisasları, ali məktəbləri seçsin. Hansı ki, bunun əksi olarsa, topladığı bala uyğun ixtisas seçmək imkanı verilərsə, görəcək riyaziyyatı humanitar fənlərdən daha yaxşı bilir, texniki ixtisaslara istiqamətlənəcək, ya da əksinə, texniki fənlərdə müvəffəq olmadığını bilib humanitar və ya təbiət elmlərinə maraq göstərəcək. DİM-in keçirdiyi imtahanların şəffaflığına şübhə yoxdur. Lakin təkmilləşmə, fənlərin minimallaşdırılması, ixtisas qruplarının ləğvi zəruridir.

**Məlahət Rzayeva**

# Daha iki nəfər ermənilərin mina terrorunun qurbanı oldu

## Ermənistana “mülki missiya” yollayanlar, Rasmussen kimi yaramazları qabağa verənlər, bu cinayətə ortaqdır



**Ağdam rayonunun Yusifcanlı kəndi ərazisində kəndin iki sakini mina partlayışı nəticəsində həyatlarını itirib. Onlar heyvan otararkən minaya düşüblər. Hadisədən sonra Xarici İşlər Nazirliyi növbəti dəfə beynəlxalq təşkilatlara Ermənistanın mina terroru ilə bağlı çağırış edib.**

Nazirlik dünya ictimaiyyətini Ermənistanın cinayətlərinə göz yummamağa səsləyib. Məlumat üçün bildirək ki, Vətən müharibəsindən indiyə qədər ümumilikdə 286 nəfər mina qurbanı olub, onlardan 48 nəfər həlak olub. Ağdamda baş verən mina partlayışı bir daha onu göstərir ki, Azərbaycana yararlı və düzgün mina xəritələrini təqdim etməyən, üçtərəfli bəyanatın 6-cı bəndini kobudcasına pozaraq Azərbaycan ərazisində hərbi fəaliyyəti, minaların daşınmasını və yerləşdirməsini davam etdirən Ermənistanın əsas məqsədi postmünaqişə dövründə aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinə mane olmaqdır. Ermənistan tərəfi habelə məcburi köçkünlərin geri qayıtmasına və öz yerlərində dinc yaşamasına maneçilik yaratmaq niyyətindədir. Şübhə yox ki, İrəvanın bu addımları regionda sülh, təhlükəsizlik və əməkdaşlığın reallaşdırılmasına başlıca əngəl olmaqda davam edir.

Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva bildirib ki, Ermənistan bu gün də təxribatlarını davam etdirərək işğaldan azad olunmuş ərazilərimizi yenidən minalarla çirkləndirir. Ombudsman mülki insanların davamlı olaraq həyat və sağlamlığına qəsd edən Ermənistanın mina terrorunu kəskin şəkildə pisləyib. Vurğulayıb ki, Ermənistan 30 ilə yaxın bir dövr ərzində Azərbaycanın Qarabağ bölgəsindəki şəhər və rayonlarını yalnız işğal altında saxlamaqla kifayətlənməyib. Həm də günahsız insanları qətlə yetirmək məqsədilə həmin əraziləri qəsdən kütləvi şəkildə minalayıb: ”Ermənistan nəinki ötən illər ərzində basdırdığı minaların dəqiq xəritələri haqqında ölkəmizə məlumat vermir, ərazilərimizi yenidən minalarla çirkləndirir. Nəticədə mülki şəxslərin və hərbçilərin həyatı ciddi təhlükə altına düşür. Bir daha dünya ictimaiyyətinə, o cümlədən insan hüquqlarının müdafiəsi ilə məşğul olan beynəlxalq təşkilatlara səslənərək insan hüquq və azadlıqlarının müdafiəsi məqsədilə bu məsələdə qətiyyətli mövqe nümayiş etdirməyə çağırıram”.

**Millət vəkili Sahib Aliyev deyib ki, iki gənc soydaşımızın Ağdamın Yusifcanlı kəndində heyvan otararkən minaya düşüb həyatlarını itirmələri olduqca üzücü xəbərdir. Deputat bildirib ki, bu cinayətlərə görə, təkcə işğal altında olmuş torpaqlarımızı ”mina plantasiyası”na çevirən hay nasistləri deyil, həm də onların vəhşiliklərini görməzdən gələnlər məsuliyyət daşıyır:** ”Məhz həmin dairələr xəstə xislətli hayların Qarabağa mina daşıması üçün Laçın yolunda Azərbaycanın nəzarət-buraxılış məntəqəsi qoymasının əleyhinə çıxırlar. Ermənistana ”mülki missiya” yollayanlar, Rasmussen kimi yaramazları qabağa verənlər, səfirlərini haylara dəstək məqsədilə Gorusa göndərənlər, Qafanda konsulluq açanlar bu cinayətə ortaqdır”.

**İsmayıl**

# Anti-müsəlman siyasəti genişlənir

## İslamafobiya Fransa Prezidenti Makronun təfəkküründə, düşüncəsində özünə möhkəm yer tutub



**”Avropa İttifaqı ölkələri sırasında ən çox müsəlmanın yaşadığı Fransa islamafobiyanın ən çox təzahür etdiyi ölkədir”. Bunu millət vəkili, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov deyib. Deputat bildirib ki, özünü ”demokratik dəyərlərin və mədəniyyətin vətəni” hesab edən Fransada insan hüquqları ciddi şəkildə pozulur:**

”Fransada müsəlmanların öz dini ayinlərini yerinə yetirmələri üçün şərait yaradılmır və məhdudiyyətlər qoyulur. İslamafobiya Fransa Prezidenti Makronun təfəkküründə, düşüncəsində özünə möhkəm yer tutub. Azərbaycana qarşı qərəzli yanaşmanın kökündə də Fransada geniş yayılmış islamafobiya dayanır. İslam dünyasının nüfuzlu simalarından olan Məhəmməd peyğəmbərin şəxsiyyəti Fransada dəfələrlə təhqir olunub, karikaturası çəkilib. Bu, islam aləminə təhqirdir. Peyğəmbər təhqir olunur, Fransa isə bu hadisəni ölkədəki ”insan hüquqları”, ”mətbuat azadlığı” və digər amillərlə əsaslandırmağa çalışır. Fransanın bəzi mətbuat orqanlarının zaman-zaman Türkiyə ilə bağlı qərəzli yanaşmaların da şahidi oluruq. Fransanın anti-türk, anti-müsəlman mövqeyi ilə seçilən ”Charlie Hebdo” jurnalı qardaş ölkədə dağılan binaların, çevrilmiş avtomobillərin karikaturasını paylaşmışdı. Bu hərəkət insanlıqdan uzaq yanaşmadır. Fransanın bu yanaşması haqlı olaraq hiddət doğurdu”.

**Parlament üzvünün sözlərinə görə, Fransada islamafobiya probleminin kökü dövlətin rəhbər tutduğu dünyəvilik prinsipində deyil, ölkənin tarixi müstəmləkəçilik siyasətində və hazırkı hökumətin yürütdüyü irqçi təfəkkürdə axtarılmalıdır:** ”Hazırda Fransa cəmiyyətində müşahidə edilən islamafobiya hər hansı qorxu və ya tarixi inamsızlıqdan irəli gəlmir. Bu, müsəlmanlara qarşı nifrətin və müstəmləkəçi irqçiliyin siyasi elita tərəfindən manipulyasiya edilməsindən qaynaqlanır. İslamafobiyanın yaranması dünyamız üçün böyük təhlükədir. İslam dininin, onun peyğəmbərinin, müqəddəs kitabımız ”Qurani-Kərim”in təhqir olunması heç bir çərçivəyə sığmır”.

**İsmayıl**



# Azərbaycan Türkiyə ilə prosesləri kordinasiya edir

## Çünki regional təhlükələr artır və bu təhlükələrə qarşı yalnız mübarizə aparmaq getdikcə çətinləşir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşündə iştirak etmək üçün martın 15-də Türkiyəyə səfərə gedib.**

Eyni gündə Prezident İlham Əliyevin Ankarada Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşü olub. Ankaradakı Prezident Sarayında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevi qarşılayıb.

Dövlət başçıları birgə foto çəkdiriblər.

Görüşdə Türk Dövlətləri Təşkilatının bu formatda keçirilən sammitlərinin əhəmiyyəti qeyd edilib, Zirvə görüşünün Türkiyədə baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılması mövzusuna həsr olunmasının önəmi vurğulanıb.

Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğan Ankarada Ermənistanla sülh müqaviləsi üzrə danışıqlar prosesi barədə fikir mübadiləsi aparıblar.

Prezidentlər görüş zamanı Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılmasını da müzakirə ediblər.

Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ölkələrimiz arasında qardaşlıq və dostluq münasibətlərinin bir millət, iki dövlət prinsipinə uyğun olaraq bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayıblar.

**Səfəri ”Şərq”ə dəyərləndirən siyasi şərhçi Turab Rzayev vurğulayıb ki, geopolitik ziddiyyətlərin kəsişdiyi dövrdə, həm Azərbaycan və Türkiyə rəhbərliyinin vaxtaşırı görüşməsi, həm də TDT-nin inkişaf etməsi çox vacibdir:** ”Çünki regional təhlükələr artır və bu təhlükələrə qarşı yalnız mübarizə aparmaq getdikcə çətinləşir. Ona görə də fəaliyyətləri və hərbi-iqtisadi, siyasi imkanları birlikdə kordinasiya etmək lazımdır. Buna görə də görüşün əhəmiyyəti yüksəkdir. Həmçinin Almaniyada danışılan məsələlərin yenidən Türkiyə ilə müzakirə olunması mümkündür. Çünki Azərbaycan Türkiyəni əsas müttəfiqi kimi qəbul edir və bütün xarici siyasi məsələləri onunla müzakirə etməyə açıqdır. Nəzərə alsaq ki, son günlərdə xüsusi bir səfər sıxlığı müşahidə olunur.

ABŞ-nin nümayəndələri və Lavrovun səfəri ilə yanaşı, ölkə başçımızın Almaniyaya getməsini də üst-üstə gəlsək, hiss olunur ki, rəsmi Bakı həm Avropa, həm də Qərb ilə aktiv xarici siyasətə qədəm qoyub. Xüsusilə bölgədə regional və qlobal güclərin maraqlarının artdığı bir dövrdə Türkiyə ilə müzakirə olunacaq məsələlər çoxdur.

Burada Zəngəzur dəhlizi, ABŞ-nin bölgəyə artan marağı, Almaniya ilə münasibətlər və İran kimi dövlətlərin yaratmaq istədiyi təxribatlara qarşı kordinasiya da müzakirə edilə bilər”.

**Nihat Müzəffər**

# Böyük sevinc var

## Ramazan ayı bu dəfə qardaş Türkiyə ilə eyni vaxtda başlayır

**Azərbaycanda müqəddəs Ramazan ayının başlanma tarixinin qardaş Türkiyədə elan olunan Ramazan tarixi ilə üst-üstə düşməsi böyük sevincə səbəb olub. Anlaşılandır. Adətən ölkəmizdə həm Ramazan ayının başlanması, həm də sonlanması - Ramazan bayramı Türkiyədən bir gün sonra vaqe olurdu.**

Bununla belə yüksək tolerantlıq mühitinə malik ölkəmizdə din xadimləri də, dövlət də bütün məzhəbləri nəzərə alaraq Ramazan bayramının həmişə 2 gün qeyd edilməsi barədə qərar veriblər. Bu dəfə də eyni yanaşmadır. Din xadimləri isə Ramazan ayı hilalının (təzə ayın) görünüb-görünməməsi mübahisələrinə son qoyulması baxımından 1 və ya 2 gün əvvəldən ehtiyat-vacibə görə oruc tutulmasını məsləhət görüblər. Dinimizdə məcburiyyət olmadığından (Lə ikrahə fid-din - ”əl-Bəqərə surəsi 156 ayə) orucluğa cədvəl üzrə və ya 1-2 gün əvvəldən başlamaqda insanlarımız sərbəstdir. Kimsə kimsəni oruc tutmağa və ya tutmamağa məcbur da etmir. Toxunacağımız məsələ isə başqadır. İllərdir Qafqaz Müsəlmanları İdarəsi açıqlanan Ramazan ayı təqviminin məhz Şamaxı Astrofizika Rəsədxanası tərəfindən təqdim olunduğunu, təzə ayın hilalının Bakı üfüqü ilə nə zaman görünəcəyinin də məhz Rəsədxananın hesablamaları ilə qeyd edildiyini bildirir. Bu il də həmçinin. Bildirilib ki, miladi təqvimlə 2023-cü il Ramazan ayının hilalı Azərbaycan üfüqündə mart ayının 22-də görünəcək. Ramazanın ilk günü isə mart ayının 23-də olacaq. Aprelin 21 və 22-si Ramazan bayramıdır. Dünənədək Şamaxı Rəsədxanasına inanmayanlar indi niyə inanır, maraqlıdır. **Bəlkə, həqiqətən də, əvvəlki illərdə ayın başlanmasını Rəsədxana təyin etməyib, QMİ özü göyə baxırmış? Şamaxı Astrofizika Rəsədxanasında uzun illər səlahiyyətli şəxs olaraq çalışmış, astrofizik, fəlsəfə elmləri doktoru Xıdır Mikayılov ”Şərq”ə açıqlamasında qeyd etdi ki, Ramazan ayının dəqiq nə zaman başlanmasıyla bağlı mübahisələr həmişə olub:**



“Vaxt itkisi olmasın deyə, astronomlar riyazi hesablamalara üstünlük verir və təzə Ayın nə zaman doğulacağını elan edirlər”

- Buna səbəb odur ki, bir qisim din xadimi ”Qurani-Kərim”dəki ”təzə ayı görüb oruc tutun, təzə ayı görüb bayram edin”, ayəsinə əsaslanaraq təzə ayın - hilalın gözlə görünməsində israr edir. Bir qisim din xadimi isə təzə ayın görünməsinin yalnız 1-2 gün fərqlə mümkün olduğunu əsas gətirərək astronomik hesablamalara uyğun davranılmasını daha məqbul sayırlar. Mən Rəsədxanada çalışdığım illərdə Qafqaz Müsəlmanları İdarəsinin tələbi bu idi ki, hilalın görünəcəyi vaxtı bildirək və Ramazan ayının başlanması həmin gündən hesablansın. Təzə ay ilk günlər heç vaxt görünmür. Təzə ay nədir? Yer, Ay və Günəş planetləri 1 düz xətt üzərində dayandıqda ona təzə ay deyilir. Ayın özünün işığı yoxdur. Ayı işıqlandıran Günəşdir. Nə vaxt ki Günəşin şüası Ayın üzərinə düşür, Ay o zaman işıqlanır və görünür. Şamaxı Rəsədxanasında dəqiq hesablama aparılır, hətta saniyəsinə qədər, yeni ay nə zaman ”doğacaq”. Əslində, təzə ay var, lakin görünmür. Ayın doğuşunun sıfırıncı günü var, bir də var 1-2 gün sonra görünən Ay. Fərqli coğrafi enliklərdə Ayın görünməsi də fərqli zamanlara təsadüf edir. Ən azından 1-2 gün keçməlidir ki, təzə Ay görünsün. Vaxt itkisi olmasın deyə, astronomlar riyazi hesablamalara üstünlük verir və təzə Ayın nə zaman doğulacağını elan edirlər. Bu, Ayın konfiqurasiyasından asılıdır. Hesab edirəm ki, bu, daha düzgün yanaşmadır. Çünki Ayın gözlə görünməsini oturub gözləmək doğru olmaz. Bəlkə bulud oldu, heç ay görünmədi?.. Türkiyədə də Ramazan ayının başlanmasında astronomların rəyinə əsaslanır, astronomik təqvimə uyğun davranırlar.

**X.Mikayılov Rəsədxana alimlərinin əməyinin heçə sayılmasından narahatlığını ifadə etdi:**

- Biz həmişə doğru hesablama aparmışıq, Rəsədxana astrofiziklərinin hesablamaları əsasında Azərbaycanda Ramazan ayının başlanma və başa çatma vaxtları müəyyən edilib. Bu, bəzən Türkiyə ilə üst-üstə düşüb, bəzən İranla. Başqa fikirlərə düşmək, Rəsədxana alimlərinin haqqını tapdalamaq olar.

**Məlahət Rzayeva**

# Sonuncu əməliyyat böyük uğurdur

## İfşa olunan rezidentin əhatəsində xeyli casus var

**Azərbaycanda casusluq edən xarici ölkə vətəndaşı həbs olunub. Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) məlumatında bildirilib ki, xarici ölkə vətəndaşı, 1994-cü il təvəllüdlü Qaedi Mohammad Najaf oğlu tərəfindən Azərbaycan ərazisində casusluq cinayət əməllərinin törədilməsinə əsaslı şübhələr müəyyən edilib.**

Toplanılmış çoxsaylı sübutlar əsasında agent xarici xüsusi xidmət orqanının tapşırığı ilə dövlət sirri sayılan məlumatların toplanılması və verilməsinin təşkili ilə məşğul olub. O cümlədən ələ keçən casusun Azərbaycan hüquq-mühafizə orqanı əməkdaşları barədə fərdi məlumatların əldə edilməsi, onlarla şəxsi münasibətlər qurulması və məxfi əməkdaşlığa cəlb edilməsi istiqamətində fəaliyyət göstərdiyi aşkarlanıb.

**Təhlükəsizlik məsələsi üzrə ekspert, polkovnik-leytenant İlham İsmayıl ”Şərq”ə açıqlamasında bildirib ki, İranın casus şəbəkəsi ilə bağlı həyata keçirilən əməliyyatlar daha çox Azərbaycan vətəndaşları ilə bağlı idi. Ekspertin fikrincə, sonuncu əməliyyatda Azərbaycanda casusluq edən xarici vətəndaşın ifşa olunması xüsusi xidmət orqanlarımızın böyük uğurudur:** ”DTX tərəfindən ifşa olunmuş casus təkbaşına fəaliyyət göstərmir. O, rezidentdir. Kəşfiyyatda rezidentin statusu ondan ibarətdir ki, o, bütöv bir agentura şəbəkəsini yaradır, təşkilatlandırır və istiqamətləndirir. DTX-nin yaydığı məlumatda xüsusi göstərilir ki, ələ keçən casus ”məlumatların toplanması və ötürülməsi işinin təşkili” ilə məşğul olub. Yəni böyük agentura şəbəkəsi yaradıb və onların vasitəsi ilə məxfi məlumatların toplanmasına rəhbərlik edib. Şübhə yox ki, agentura şəbəkəsinə cəlb olunanlar Azərbaycan vətəndaşlarıdır. DTX-nin ifşa etdiyi casusun əliylə şəbəkədəki digər agentləri də müəyyənləşdirmək mümkün olacaq. Məlumatların kimlər tərəfindən toplandığı aşkarlanacaq”.




DTX-nin ifşa etdiyi casusun əliylə şəbəkədəki digər agentləri də müəyyənləşdirmək mümkün olacaq

İlham İsmayıl vurğulayıb ki, İranın Azərbaycana qarşı casusluq fəaliyyəti sadəcə dini-ideoloji mahiyyət daşımır. Eyni zamanda siyasi və hərbi məqsədlərə də xidmət edir: ”Hüquq-mühafizə orqanlarında çalışan əməkdaşlar haqqında informasiya toplanması elə-belə məsələ deyil. Hüquq-mühafizə orqanları dedikdə Daxili İşlər Nazirliyi, prokurorluq, xüsusi xidmət orqanları və s. nəzərdə tutulur. Məqsəd hüquq-mühafizə və təhlükəsizlik sistemində çalışan şəxsləri istənilən yollarla casusluğa cəlb etmək, onlardan öz mənafeləri üçün yararlanmaqdır. Bəzi vətəndaşları ideoloji, dini yollarla agentura şəbəkəsinə cəlb edirlər, bəzilərini isə maddi əsaslarla ələ alırlar. İfşa olunan rezidentin əhatəsində xeyli casus var və yaxın dönəmdə kimlikləri ictimaiyyətə məlum olacaq. Bu istiqamətdə bütün orqanlarımız fasilə vermədən fəaliyyətini davam etdirməlidir”.

**İsmayıl Qocayev**

# Əsəd-Ərdoğan dialoqu aktuallaşır

## Ankara üçün effektiv əməkdaşlıq formatı bölgədə Türkiyə-Suriya-İran-Rusiya formatından keçir



**Suriya Prezidenti Bəşər Əsəd Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğanla mümkün görüşü barədə danışıb. O, Türkiyə hərbçiləri ölkəsini tərk etdikdən sonra Ərdoğanla görüşəcəyini bildirib. Əsədin fikrincə, bu cür danışıqlar Suriyadakı hərbi münaqişəyə son qoymalıdır: ”Ərdoğanla görüşə gəlincə, bu, Türkiyənin Suriya ərazisindən qoşunlarının tam çıxarılması halında olacaq. Suriyada müharibə başlamazdan əvvəl vəziyyət necə idi? Bu, mənim Ərdoğanla görüşümün baş tuta biləcəyi yeganə variantdır”.**

Suriya Prezidenti həmçinin Suriya ilə Türkiyə arasında münaqişənin həlli məsələsində vasitəçi kimi fəaliyyət göstərdiyi üçün Rusiyaya güvəndiyini bildirib: ”Bu məqsədlə Rusiya Suriya ilə birgə işləyir, Cenevrə, Astana və digər formatlarda məsələni həll etməyə çalışır. Bütün bu formatların bir məqsədi var - Suriyada sabitliyi bərpa etmək”. Əsəd vurğulayıb ki, Rusiyanın Suriyadakı hərbi mövcudluğu müvəqqəti olmamalı və yalnız terrorla mübarizə ilə məhdudlaşmamalıdır. ”Terrorizmlə mübarizə bu günün mövzusudur, lakin müvəqqətidir. Rusiyanın hər hansı bir ölkədə hərbi mövcudluğu müvəqqəti heç nəyə əsaslanmamalıdır. Söhbət beynəlxalq balansdan gedir və Rusiyanın Suriyada olması Aralıq dənizində yerləşən bir ölkə kimi dünyada güc balansı ilə bağlı bir məna daşıyır”.

Türkiyə Prezidenti yanında Təhlükəsizlik və Xarici Siyasət Şurasının üzvü Çağrı Erhan isə deyib ki, prezident seçkiləri öncəsi Türkiyə və Suriya prezidentləri arasında görüş ehtimalı azdır. O bildirib ki, Prezident Ərdoğan, prinsipcə, belə bir görüşün əleyhinə deyil, lakin dağıdıcı zəlzələlər hər şeyi dəyişdi: ”Prezidentin bütün iş qrafiki dəyişdirilib. O, həftənin 3 gününü fəlakət zonasında keçirir. Seçkiyə az vaxt qalıb, ola bilər ki, görüş seçkilərdən sonra baş tutsun”.

**Politoloq Azər Rəşidoğlu ”Şərq”ə açıqlamasında bildirib ki, Suriyada proseslər başlayandan rəsmi Dəməşqin əsas müttəfiqləri Rusiya və İran olub. Ekspert vurğulayıb ki, prosesin uzanması və Əsəd hakimiyyətinin vəziyyətə nəzarəti əldən buraxmamasının əsas səbəbkarları da məhz bu iki dövlətdir:** ”Tehranın Dəməşqə kifayət qədər ciddi təsir imkanları var. Amma Rusiyanın mövqeyinin güclənməsi də Dəməşqin maraqlarına cavab verir. Əsədin Kremldən əlavə yardım çağırışını əslində bu formada qiymətləndirmək olar. İranla bağlı vacib proseslər baş verir. Rusiya Ukrayna məsələsində hərbi və maliyyə baxımından kifayət qədər itkilərə məruz qalır. Bu mənada Dəməşq sözügedən iki dövlətin mövqeyinin Suriyada hazırda da güclü olmasında maraqlıdır. Çünki hər hansı bir şəkildə həmin iki dövlətin mövqeləri zəifləyərsə, bu, avtomatik olaraq Suriyada digər qüvvələrin həmin boşluqları doldurmasına gətirib çıxaracaq. Qərb baş verən son proseslər fonunda Yaxın Şərqdə öz mövqeyini gücləndirmək niyyətindədir. Türkiyənin də bölgədə mövqeyi güclənməkdədir. Dəməşqin Rusiyaya etdiyi həmin çağırış da məhz sözügedən məqamlardan qaynaqlanır. Rusiyanın Suriyanın çağırışına müsbət cavab verəcəyini düşünmürəm. Ukrayna müharibəsinin uzanması Rusiyaya hər baxımdan kifayət qədər ciddi itkilər yaşadır. Bunun fonunda Moskvanın Suriyada çağırışa uyğun adekvat addımlar atacağı bir qədər şübhəlidir. Bəlkə də bu səbəbdəndir ki, Moskva Türkiyə ilə Suriya arasında vasitəçilik missiyasını oynamaqda əsas vəzifəni öz üzərinə götürüb”.

*Analitik vurğulayıb ki, faktiki olaraq Rusiya Suriyadakı prosesləri yenə də öz nəzarətində saxlamağa çalışır:* ”Lakin hərbi nöqteyi-nəzərdən Moskvanın Suriyada iştirakını artıracağı inandırıcı görünmür. Suriyada Türkiyə nə qazandısa, sırf Rusiyanın yürütdüyü Suriya siyasətinin nəticəsində əldə edə bildi. ABŞ siyasəti nəticəsində isə Türkiyə ərazisinə 4 milyondan artıq qaçqın aldı, üstəgəl, Suriyada kürd terrorçuları dövlət kimi bir qurum yarada bildi. Ən nəhayət, Suriyanın bütün neft ərazilərini ABŞ ələ keçirdi və ən sonda da İŞİD qalıqlarını Türkiyənin üstünə atdılar. Hazırda bütün hallarda Türkiyə üçün effektiv əməkdaşlıq formatı bölgədə Türkiyə-Suriya-İran-Rusiya formatından keçir. Bu baxımdan, Əsəd-Ərdoğan dialoqu aktuallaşır. Əsəd hakimiyyəti ilə barışıb, mübarizə arealını böyütmək və Türkiyə sərhədi boyunca PKK, İŞİD, qaçqın təhlükəsini birdəfəlik qabaqlamaq mümkündür. Seçkiqabağı Ərdoğan bunu edə bilsə, reytinqi artacaq”.

**İsmayıl Qocayev**



**Rusiya sülhməramlı kontingentinin Turşsu qəsəbəsi istiqamətindəki müşahidə məntəqəsində üzərində SSRİ gerbi olan qırmızı bayraq qaldırılıb. Bununla bağlı videogörüntülər də yayılıb. Bir müddət sonra bayraq endirilib. Ümumiyyətlə, ötən iki il ərzində Rusiya hərbi kontingenti müvəqqəti nəzarət etdiyi Qarabağ bölgəsində çoxsaylı təxribatlara yol verib.**

Qarabağda rus sərkərdələrinə abidələrin qoyulması, görüş zamanı Xocalıdakı qərargah otaqlarında divarlara sovet generallarının portretlərinin yapışdırılması da bunun bariz nümunəsidir. Analitiklərə görə, Qarabağda keçmiş sovet elementlərini sərgiləyən Rusiyanın

# Azərbaycana qarşı təxribatlara hazırlıq gedir

## Qulamhüseyn Əlibəyli: ”Kremlin köməyinə çatan elə özlərinin yaratdığı separatçı qüvvələrdir”

əsas məqsədi imperiya ambisiyalarını reallaşdırmağa xidmət edir. Ukraynada işğalçı müharibə vasitəsilə keçmiş imperiya sərhədlərini bərpa etməyi planlaşdıran Kremlin başqa ərazilərə baxışı da eynidir. Ancaq şübhə yox ki, Rusiya hərbi kontingentini Qarabağdan yola saldıqdan və torpaqlarımızın qalan hissəsini azad etdikdən sonra rus heykəlləri də digər SSRİ atributları kimi tarixin zibilliyinə atılacaq.

**Aydınlar Partiyasının sədri Qulamhüseyn Əlibəyli ”Şərq”ə bildirib ki, Qarabağda yaşananlar Rusiyanın imperiya maraqlarından irəli gəlir:** ”Rusiya istəyir ki, köhnə sovet məkanında əvvəlki təsir gücünü qoruyub saxlasın. Təbii ki, belə halda Kremlin köməyinə çatan elə özlərinin yaratdığı separatçı qüvvələrdir. Azərbaycanda həyata keçirilən ssenari vaxtı ilə Gürcüstan, Ukrayna və Moldovada da tətbiq olunub. İndi Azərbaycanda da bənzər səhnəni canlandırmağa çalışırlar. Ancaq bunun qarşısını almağın yolu sadədir. Daha doğrusu, başqa çıxış yolumuz yoxdur. Azərbaycan Ordusu və təhlükəsizlik qüvvələrimiz dərhal antiterror əməliyyatına başlamalıdır. Qarabağdakı qondarma rejim, separatçılar tamamilə məhv edilməlidir. Ərazi bütün erməni silahlılarından təmizlənməlidir. Əks halda Qarabağda erməni və rus təxribatlarının qarşısını almaq mümkün olmayacaq. Qarşıda bizi gözləyən daha böyük faciələrin önünü kəsmək üçün ləngiməməliyik. Erməniləri elə-belə silahlandırmırlar ki? Rusiya qoşunları ”sülhməramlı” adı ilə Qarabağa girdiyi gündən ermənilərə silah-sursat daşınır və onlara təlimlər keçirlər.Birmənalı olaraq Azərbaycana qarşı təxribatlara hazırlıq gedir. Separatçılığı diplomatik, hüquqi yollarla aradan qaldırmaq qeyri-mümkündür. Quldurları ancaq silah tətbiq etməklə zərərsizləşdirməliyik. Qarabağda suverenliyimiz bərpa olunandan sonra orada başqa dövlətin elementlərini görməyəcəyik”.

**İsmayıl Qocayev**



# Yeni ittifaq xətti yaradılır

## Rusiya, İran, Çin və Belarus Qərbə qarşı birləşir

**Ərəbistan dənizində, İranın Çahbehar limanı yaxınlığında Rusiya, Çin və İranın ”Dəniz təhlükəsizlik zolağı - 2023” üçtərəfli hərbi dəniz təlimləri başlayıb.**

Bu barədə Rusiyanın Müdafiə Nazirliyi məlumat yayıb.

”Bu gün Ərəbistan dənizinin sularında İran İslam Respublikasının Çahbehar limanı yaxınlığında Rusiya Federasiyası Hərbi Dəniz Qüvvələri, Çin Xalq Azadlıq Ordusu Hərbi Dəniz Qüvvələri və İranın Hərbi Dəniz Qüvvələrinin iştirakı ilə ”Dəniz təhlükəsizlik zolağı - 2023” üçtərəfli hərbi dəniz təlimi başlayıb.”, - nazirlikdən bildirilib.

Qeyd olunub ki, Rusiya tərəfini Şimal Donanmasının gəmilər dəstəsi - ”Sovet İttifaqı Donanmasının Admiralı Qorşkov” freqatı və ”Kama” orta dəniz tankeri təmsil edir.

**Hadisəyə münasibət bildirən siyasi şərhçi Elçin Xalidbəyli ”Şərq”ə bildirib ki, son zamanlarda yeni ittifaq xətti formalaşmağa başlayıb:**

”Bu birliyi hələlik Rusiya, İran, Çin və Belarus təşkil edir. Onlar Qərblə qarşıdurmada vahid platformadan çıxış edərək, müqavimət göstərməyə çalışırlar. Bu həm iqtisadi, həm də hərbi sahədə əməkdaşlıqda özünü göstərir. İttifaqın hansı səviyyədə effektiv olacağını söyləmək isə çətindir.

*"Böyük ehtimalla bu sıraya yaxın gələcəkdə Hindistan və bir neçə Asiya ölkəsinin qatılma ehtimalı var"*

Yəqin ki, sözügedən hərbi təlimlər də həmin müqavimət xəttinin tərkib hissəsidir. Böyük ehtimalla bu sıraya yaxın gələcəkdə Hindistan və bir neçə Asiya ölkəsinin qatılma ehtimalı var.

Lakin bu ittifaqın ABŞ və onun müttəfiqlərinə hansı səviyyəyə qədər müqavimət göstərmək imkanlarının olacağını söyləmək hələlik tezdir”.

**Nihat Müzəffər**

# Ermənistanla hərbi toqquşma qaçılmaz olacaq

## Vasitəçi ABŞ və Brüssel Paşinyanın pozuculuq siyasətinə seyrçi qalmaqdadır



**”Ermənistan yeni hərbi toqquşmada maraqlıdır”. Bunu ”Şərq”ə Milli Cəbhə Partiyasının sədr müavini, politoloq Məhəmməd Əsədullazadə deyib.**

Partiya təmsilçisi qeyd edib ki, Ermənistan Baş naziri Nikol Paşinyan indiki ritorikasını davam etdirsə, sülh müqaviləsinin imzalanmasından yayınsa, hərbi toqquşma qaçılmaz olacaq: ”Vasitəçi ABŞ və Brüssel Paşinyanın pozuculuq siyasətinə seyrçi qalmaqdadır. Vaşinqtonun susqunluq nümayiş etdirməsi əsasən Paşinyanın anti-Rusiya siyasəti həyata keçirməsi ilə bağlıdır. Halbuki regionda daha məntiqli və obyektiv siyasət ortaya qoyan ölkə Azərbaycandır. Paşinyan BMT-nin faktaraşdırıcı missiyanın Laçın dəhlizinə və Qarabağa göndərilməsi təklifi Rusiyanın əleyhinə olduğu üçün Vaşinqtondan dəstək görür. Ancaq ABŞ və Avropa İttifaqı Azərbaycanın Laçın dəhlizinə nəzarət-buraxılış məntəqəsi qurmasına da dəstək verir. Çünki bu məqam da Rusiyanın bölgədə fəaliyyətini məhdudlaşdırır. Lakin indiki məqamda Paşinyanin təklifi sülhə və təhlükəsizliyə təhdid olmaqla yanaşı, böhranın dərinləşməsinə xidmət edir. Rəsmi Bakı ABŞ və Avropa İttifaqı ilə sıx işləməli, Ermənistanın diplomatik təşəbbüslərini neytrallaşdırmalıdır”. Analitikə görə, situasiya elə bir müstəviyə gəlib çıxıb ki, hər an silahlı toqquşmanın baş verməsi mümkündür: ”İrəvan yeni hərbi toqquşmanın baş verməsində maraqlı görünür. Paşinyan hökumətə ”Artsax respublikası” ifadəsini yığışdırmaq göstərişi versə də, bu, baş nazirin gərginlikdə maraqlı olmadığını göstərmir. İrəvanın Azərbaycana qarşı ərazi iddiaları ilə yanaşı, sərhəddə və Qarabağda təxribatlar davam edir. Baş nazir gərginliyin artmağını istəməsəydi, erməni silahlı qüvvələri atəşkəsi davamlı pozmazdı”.

**İsmayıl**

# Paşinyan Qərbi Azərbaycan İcmasının bəyanatından əndişələnir

**Ülviyyə Zülfüqar:**
”Azərbaycanlıların Ermənistandan qovulması insanlığa qarşı cinayətdir”

**Məhərrəm Zülfüqarlı:**
”Qərbi azərbaycanlılar indiki Ermənistana tankla, topla qayıtmaqdan danışmır ki...”



**Ermənistanın xarici işlər naziri Ararat Mirzoyana BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı ilə ermənilərin Qarabağ ərazilərinə, eləcə də onlara bitişik rayonlara qaytarılması ilə bağlı danışıqlara başlamaq tapşırılıb. Bunu Ermənistan baş nazir Nikol Paşinyan hökumətin iclasında deyib. Baş nazir bildirib ki, bunun üçün mexanizmlərdən istifadə edilməlidir: ”Xarici işlər nazirinə tapşırdım ki, onlar BMT-nin ali komissarı ilə müzakirəyə başlasın”.**

Paşinyan vurğulayıb ki, Bakı, Şirvan, Sumqayıt, Gəncə, Göygöl, Şəmkir, Naxçıvan və Azərbaycanın digər rayonlarından çıxarılan ermənilər eyni məsələ ilə bağlı hökumətə müraciət edirlər. Qeyd edək ki, Paşinyan hökuməti Qərbi Azərbaycan İcmasının Ermənistandakı dədə-baba yurdlarına qayıtmağa şərait yaratmaları ilə bağlı müraciətindən sonra ”hərəkətə” keçib. Baş nazir Qərbi Azərbaycan İcmasının İrəvan hökuməti ilə görüş tələbini geri çevirərək, bunu ”torpaq iddiası” kimi qələmə verib. Həmçinin, iddia edib ki, guya azərbaycanlılar indiki Ermənistandan zorla köçürülməyiblər, özləri ”könüllü surətdə” yaşadıqları yeri tərk ediblər. Hətta baş nazir sovet Ermənistanının onlara ”konpensasiya ödədiyini” də iddia edib. **Qərbi Azərbaycan İcmasının sözçüsü Ülviyyə Zülfüqar deyib ki, azərbaycanlıların Ermənistandan qovulması insanlığa qarşı cinayətdir. Onun sözlərinə görə, Ermənistanın baş naziri Nikol Paşinyan keçirdiyi mətbuat konfransında və Almaniyaya səfəri, Münhen konfransı zamanı azərbaycanlıların Ermənistandan qovulması faktını təkzib etməyə cəhd göstərib:** ”Baş nazirin diqqətinə çatdırırıq ki, azərbaycanlıların Ermənistandan qovulması insanlığa qarşı cinayətdir. Ermənistan rəsmiləriQərbi Azərbaycan İcmasının bəyanatlarını ”ərazi iddiası” kimi göstərməyə çalışır. Bununla daazərbaycanlılara qarşı nifrət meyilləri yayırlar. 1988-ci ildə 11 gün ərzində 300 mindən çox Qərbi azərbaycanlının qovulması deportasiyanın miqyasını və onun nə qədər sistemli şəkildə təşkil olunduğunu ortaya qoyur”.

Ü.Zülfüqarlı vurğulayıb ki, onlar sadəcə olaraq yurdlarına sülh yolu ilə qayıtmaq, orada dinc yaşamaq, müqəddəs yerlərini, məzarlıqlarını ziyarət etmək istəyirlər: ”Ermənistanın azərbaycanlıları öz torpaqlarından qovması, onların qayıtmasına imkan verməməsi bu ölkənin beynəlxalq təşkilatlar qarşısında insan hüquqları üzrə öhdəliklərinin ciddi şəkildə pozulmasıdır”.

**Tarixçi-alim, professor Məhərrəm Zülfüqarlı ”Şərq”ə açıqlamasında bildirib ki, haqlı olmağımıza baxmayaraq, uzun müddət susqun və fəaliyyətsiz qalmışıq. Alimin sözlərinə görə, Qərbi Azərbaycan İcmasının son dönəmdə aktiv fəaliyyəti müsbət haldır:** ”Etiraf edək ki, təbliğata və fəaliyyətə çox gec başlamışıq. Gec də olsa başlamışıqsa, bunu təqdirəlayiq hesab edirəm. Qərbi Azərbaycan İcmasının Paşinyan hökumətindən görüş və müzakirə tələb etməsi doğru addımdır. Bu, onların haqqıdır. Bir ovuc erməninin ”öz müqəddəratını həll etmə” haqqını tanıyan, Qarabağda separatçılara dəstək verən böyük dövlətlər yüz minlərlə azərbaycanlının tarixi yurdlarından zorla qovulması faktını görməzdən gəliblər. Biz də əlimizdəki faktlardan yetərli səviyyədə istifadə etməmişik. Paşinyan isə erməni xislətinə yaraşan addımlar atır. İcmanın beynəlxalq hüquqa əsaslanan tələblərini geri çevirərək, absurd iddialarla ”adekvat” tələblər irəli sürür. Baş nazir Azərbaycanda vaxtı ilə yaşamış ermənilərdən danışır, amma bir məqamı - say məsələsini unudur. Yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından deportasiya edilməsini, təzyiqlərə, işgəncələrə məruz qalmasını, qətlə yetirilməsini 5-10 erməninin Azərbaycandan köçməsi ilə necə müqayisə etmək olar?! Müqayisə etsələr uduzan ermənilər olacaq. Qərbi azərbaycanlılar indiki Ermənistana tankla, topla qayıtmaqdan danışmır ki? Paşinyan hansı məntiqlə bunu ”ərazi iddiası” kimi dünyaya təqdim edir?”.

*M.Zülfüqarlı bəyan edib ki, Ermənistan rəhbərliyi hər zaman olduğu kimisaxtakarlıqla məşğuldur:* ”Nikol Paşinyan iddia etdiyi kimi sülhün əldə olunmasında maraqlıdırsa, İcma ilə görüş tələbinə normal yanaşmalı idi. Əksi göstərir ki, Ermənistan yenə də hansısa dövlətin himayəsinə arxayın olaraq əvvəlki siyasətini davam etdirməyə çalışır. Bu da İrəvan üçün yaxşı heç nə vəd etmir və erməni xalqını fəlakətə sürükləyir. Ermənilər içində sağlam düşünənlər varsa, dərk etməlidirlər ki, gec-tez qonşu ölkələrlə münasibətlər düzəlməlidir. Əsrlər boyu bir-birinə düşmən olmuş dövlətlər, xalqlar belə problemlərini masa arxasında həll ediblər. İki dünya müharibəsində qarşı cəbhələrdə yer almış Almaniya və Fransa Avropa Birliyində ən yaxın müttəfiq ölkələrdir. Bizdə də əməkdaşlıq üçün imkanlar var, ”Qafqaz Evi” ideyası var. Bu ideyanın müəllifi Azərbaycandır. Mən ”Qafqaz Evi” haqqında Üzeyir Hacıbəyova istinad edərək bir məqalə də yazmışam. Problemlərdən biri odur ki, ermənilərin taleyi öz əllərində deyil. Gah Fransaya, gah da Rusiyaya meyillənir, özünə ”böyük qardaş” axtarır. ”Böyük qardaş” da erməniləri öz maraqlarına qurban verir. Digər problem odur ki, ermənilər bölgənin yerli xalqı deyillər, gəlmələrdir. Gürcüstanla Azərbaycan arasında heç bir problem yoxdur, çünki iki yerli xalq bir-birini gözəl başa düşür və rahat anlaşırlar. Ermənilərin ağlı olsaydı, çoxdan regional əməkdaşlığın bir parçasına çevrilmişdilər. Ümid edirik ki, ermənilər ağıllanacaq”.

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi;**



# Azərbaycan dünyaya həmişə nümunə olub

## Ölkəmizdəki multikulturalizm çoxsaylı əcnəbi din xadimləri tərəfindən dəfələrlə dilə gətirilib, yüksək qiymətləndirilib

**Multikulturalizm mahiyyət etibarı ilə fərqli mədəniyyətlərin vahid və üstün bir zəmində əridilməsini deyil, bərabər hüquqlarla birgə və yanaşı, yaşamasını zəruri edir. Bu baxımdan fərqli dini, etnik qrup və mədəniyyətlərin hüquq və azadlıqlarının qanunvericiliklə tənzimlənməsi böyük əhəmiyyət kəsb edir. Azərbaycanda isə bu hüquqlar daha üstün - konstitusiya təminatı altındadır.**

Konstitusiyamızın müvafiq maddələrinə müraciət etsək, Azərbaycanda "fərqliliklərin" qorunmasına yönələn dövlət siyasətini aydın şəkildə görərik. Xalqımızın xarakterik keyfiyyəti olan tolerantlığın daha da inkişaf etdirilməsi üçün hüquqi baza yaradılıb. Vətəndaşlarımızın vicdan azadlığı hüququ birbaşa Konstitusiyamızda, geniş şəkildə isə "Dini etiqad azadlığı haqqında" Qanunda təsbit olunub. Konstitusiyamızın 48-ci maddəsinə görə, hər bir vətəndaş vicdan azadlığını, dinə münasibətini müstəqil müəyyənləşdirmək, dini əqidəsini sərbəst ifadə etmək və yaymaq, dini mərasimlərini sərbəst yerinə yetirmək hüququna malikdir. Bunlardan əlavə, ölkədə tolerantlığı, dini dözümlülüyü möhkəmləndirmək məqsədilə insan hüquq və azadlıqları, o cümlədən vicdan və dini etiqad azadlığı ilə bağlı qanunvericilik beynəlxalq hüquq normalarına uyğunlaşdırılıb. Azərbaycanda və bütün regionda 16 noyabr Beynəlxalq tolerantlıq günü kimi qeyd edilir. Ölkəmiz bütün dövrlərdə dini və etnik ayrı-seçkilikdən əziyyət çəkən insanların sığınacaq, yurd yeri olub. Dini və etnik ayrı-seçkilikdən əziyyət çəkən insanlar ölkəmizə üz tutub, yurd salıb burada yaşamağı seçiblər. Təkcə yəhudi və xristianlığın mənsubları deyil, müxtəlif səbəblərdən təzyiqlərlə üzləşən, sıxışdırılan islamla bağlı məzhəblərin nümayəndələri də bizə pənah gətiriblər. Bu baxımdan Azərbaycan əhalisinin tərkibi həm etnik, həm dini, həm də məzhəb baxımından zəngindir. Sevindirici haldır ki, Azərbaycanda müxtəlif dinlərin və dini fəlsəfi cərəyanların yayılmasına baxmayaraq, etnik və dini icmalar arasında möhkəm dözümlülük əlaqələri formalaşıb, milli, irqi və dini zəmində heç bir ayrı-seçkilik faktı qeydə alınmayıb. Azərbaycanda məskunlaşan dini-etnik qrupların nümayəndələri burada özlərini yad yox, öz doğma vətənlərindəki kimi hiss ediblər. Onlar yerli əhali ilə qaynayıb-qarışıb, hətta qohumluq əlaqələri də qurublar.

Azərbaycanda tolerantlığın inkişafı Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda yenidən hakimiyyətə qayıdışından sonra bütün sahələrdə olduğu kimi, dini tolerantlığın inkişafı və qorunması istiqamətində də mühüm addımlar atılıb. Heydər Əliyev hesab edirdi ki, Azərbaycan xalqı özlüyündə, təbiətinə görə, öz xarakterinə görə yüksək tolerantlıq hissinə malikdir: "Azərbaycan əhalisinin çox hissəsinin etiqad etdiyi müsəlman dinində, onun kökündə də tolerantlıq var".

Dini tolerantlığın qorunması Prezident İlham Əliyevin siyasətində özünə mühüm yer tutur. Prezidentin tapşırığı ilə bu sahədə görülən işlər dini sabitliyin möhkəmlənməsində vacib əhəmiyyət daşıyır. Dünyada nümunəvi tolerantlıq məkanına çevrilən Azərbaycanda tolerantlığın daha da inkişaf etdirilməsi, habelə etnik-dini müxtəlifliyin qorunub saxlanılması dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir.

Prezident İlham Əliyevin ötən gün Roma Papası Fransiskə Tacqoyma Günü münasibətilə ünvanladığı təbrik məktubunda da Azərbaycandakı tolerantlıqdan bəhs edib. Dövlət başçısı qeyd edib ki, multikulturalizm və tolerantlıq xalqımızın həyat və yaşam tərzini özündə əks etdirən mühüm dəyərlər olmaqla yanaşı, Azərbaycanın dövlət siyasətinin əsas prioritetlərindəndir: "Əsrlər boyu müxtəlif din və etiqadlara mənsub insanların mehribanlıq və qarşılıqlı hörmət şəraitində yaşadığı ölkəmizdə məscidlərin, sinaqoqların və kilsələrin yanaşı fəaliyyət göstərməsi bizim böyük tarixi nailiyyətimizdir. Azərbaycandakı katolik dini icmasının daim böyük diqqət və qayğı ilə əhatə olunması bunun əyani göstəricisidir". Prezident bəyan edib ki, Azərbaycan sivilizasiyalararası və dinlərarası dialoqun, multikulturalizm dəyərlərinin qorunub saxlanması və daim inkişaf etdirilməsi yolunda uzun illərdən bəri davam edən fəal və səmərəli əməkdaşlığa xüsusi əhəmiyyət verir: "Ölkəmizin Vatikanın tarixi yerlərinin bərpasında iştirakından məmnunluq duyur və bunun dünya mədəni irsinin, zəngin incəsənət xəzinəsinin qorunub saxlanmasına və gələcək nəsillərə ötürülməsinə, eləcə də mədəniyyətlərarası dialoqa töhfə verəcəyinə inamımı ifadə edirəm".

**Millət vəkili Ceyhun Məmmədov qeyd edib ki, Azərbaycanda ta qədimdən bütün dinlərin nümayəndələrinə öz dini etiqad və azadlıqlarını ifadə etmək, dini ayin və mərasimləri sərbəst yerinə yetirmək üçün şərait yaradılıb. Ayrı-ayrı dinlərə etiqad edən insanlar ölkəmizdə daima sülh və əmin-amanlıq şəraitində yaşayıb, dinlərini, adət-ənənələrini qoruyub saxlayıblar:** "Azərbaycanda yaşayan digər xalqların nümayəndələri arasında milli, irqi, dini ayrı-seçkilik, ədavət və qarşıdurma müşahidə edilməyib. Onlar burada özlərini öz doğma vətənlərindəki kimi hiss ediblər. Azərbaycan xalqı daim ölkədə yaşayan müxtəlif millətlərə və dinlərə mənsub insanların dostluğunun, qardaşlığının möhkəmləndirilməsinə çalışıb".

**İlahiyyatçı-alim Hacı Atif İsmayılov "Şərq"ə açıqlamasında vurğulayıb ki, Azərbaycan xalqı daim yüksək etibar və etimad göstərilən xalqlardandır. Ekspert vurğulayıb ki, Azərbaycanda dinindən, millətindən, irqindən asılı olmadan bütün xalqlar daim mehriban münasibətdə olublar:** "Dini və irqi mənsubiyyətləri fərqli olan millətlər əsrlər boyu Azərbaycanda təhlükəsiz, rahat, sərbəst həyat sürüblər. Multikultural və eyni zamanda tolerant mühitimizlə dünyada sayılıb-seçilmişik. Ölkəmiz dünyanın bir çox dövləti üçün real nümunə təşkil edib. Tolerantlığı, multikultural dəyərlərimizi təkcə sözümüzlə deyil, əməlimizlə də mütəmadi təsdiq etmişik. Bunun bariz nümunəsi odur ki, Azərbaycanda fərqli dinlərin, ayrı-ayrı millətlərin nümayəndələri uzun illərdir təhlükəsiz, heç nədən ehtiyat etmədən, narahatlıq duymadan ömür sürüblər. Sivil şəkildə öz həyatlarını yaşayıblar, ibadətlərini icra ediblər. Bəzi xarici güclər ölkəmizdəki vəhdəti pozmağa cəhd göstərsələr də, istəklərinə nail olmayıblar. Azərbaycanda müxtəlif dinlərin, hətta fərqli məzhəblərin təmsilçiləri belə qarşıdurma yaşamadan ibadətlərini, ayinlərini icra edirlər. Bu da qardaşlıq simvolunun bariz nümunəsidir".

*İlahiyyatçı bildirib ki, dinimizin bizə tövsiyəsi odur ki, hər bir şəxs dininə, milli mənsubiyyətinə görə deyil, ilk növbədə insanlığına, bəşəri xüsusiyyətlərinə görə dəyərləndirilsin:* "İslam dini vəhdəti, həmrəyliyi, sülh və əmin-amanlığı tövsiyə edir. Dünyanın bir çox ölkəsində baş verən dini qarşıdurmalar, islamafobiyanın genişlənməsi, radikalizmin və antisemitizmin artması fonunda Azərbaycanda müşahidə olunan tolerant mühit çoxlarını yaxşı mənada heyrətləndirir. Ölkəmizdəki multikulturalizm çoxsaylı əcnəbi din xadimləri tərəfindən dəfələrlə dilə gətirilib, yüksək qiymətləndirilib".

**İsmayıl**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Yumurtanın qiyməti süni bahalaşdırılıb

## Tələbatın böyük olduğu məhsullara nəzarət olmalıdır

**Broyler yumurtasının qiyməti 18-19 qəpikdən 25 qəpiyə yüksəlib. Kənd yumurtasının topdansatış qiyməti 30-35 qəpik, pərakəndə satışı isə 40 qəpik olub. Bu barədə sosial şəbəkələrdə məlumatlar yayılır. Təəccüblü hal deyil. Novruz bayramı hazırlıqları pik həddədir deyə, şirniyyatların hazırlanmasında ən çox istifadə edilən məhsulların qiymət artımı da "təbiidir".**

Zatən həmişə belə olur. Nəyə ki tələbat artır, qiymət artımı da özünü çox gözlətmir. Fürsətcillər zamanı fövtə vermir. Lakin Azərbaycan Quş əti, Yumurta istehsalçıları və İxracatçıları İctimai Birliyi yumurtanın qiymətində artım olmasını təkzib edib. İctimai Birliyin İdarə Heyətinin sədri Mürvət Həsənli "Şərq"ə açıqlamasında qeyd etdi ki, yayılan xəbərlər əsassızdır:

- Quş yumurtasının topdansatış qiymətlərində hər hansı dəyişiklik edilməyib. Mövcud topdansatış qiymətləri 2022-ci ilin oktyabrından dəyişməz olaraq qalır. Əksinə, bəzi market şəbəkələri Novruz bayramı ərəfəsində yumurtanın qiymətində 1-2 qəpik endirim edib. Hazırda quş yumurtasının istehsalında artım müşahidə olunur, quşçuluq müəssisələri istehsalı artırıb, daxili tələbat yüksək səviyyədədir. Yumurta istehsalının bol olduğu bir vaxtda quşçuluq təsərrüfatları qiymətləri qaldırmaqda maraqlı ola bilməz. Ola bilsin, kiçik marketlərdə bayramqabağı vəziyyətdən sui-istifadə edib yumurtanın qiymətini qaldırırlar. Bu, süni artımdır, iqtisadi əsası yoxdur, çünki topdansatış qiymətləri dəyişməyib.

M.Həsənli qeyd etdi ki, Nazirlər Kabinetinin qərarı ilə yem və yem əlavələrinin idxalının gömrük rüsumundan azad edilməsi, həmçinin Prezident İlham Əliyev tərəfindən yem və yem əlavələrinin idxalının bu ilin sonunadək ƏDV-dən azad edilməsi barədə imzaladığı fərman ölkəyə idxal olunan əsas yem və yem əlavələrinin qiymətinin ucuzlaşmasına və quşçuluq təsərrüfatlarının gəlirlə işləməsinə şərait yaradır. Ona görə də quşçuluq müəssisələri istehsal etdikləri məhsulların qiymətində hər hansı artıma getmirlər.

**İqtisadçı Fuad İbrahimov da hazırda yumurtanın qiymətində artıma heç bir əsas olmadığını dedi:**

- Müəyyən zamanlarda biz yumurtanın qiymətində artım olduğunu görürük. Baxmayaraq ki, bu məhsul ƏDV-dən azaddır, yenə də qiymət artımı baş verir. İstehsalçılar üçün xeyli güzəştlər var. Yem, yem əlavələri, quşçuluq avadanlıqları, profilaktika və diaqnostika məqsədilə, xəstəliklərə qarşı istifadə edilən preparatlar ƏDV-dən azaddır. Bu güzəştlər sahibkarlar ziyanla işləməsin, yerli istehsal artırılsın deyə edilir.

***Yumurtanın, şəkər tozunun qiymətlərində artım edənlər müəyyənləşib, cəzalanmalıdır***

Hökumət bazar iqtisadiyyatı tələblərinə uyğun olaraq sahibkarlıq subyektlərinə müdaxilə etmir, amma bəzən qiymətlərin əsassız artmasına şahid oluruq. Uzun illərdir "Rəqabət Məcəlləsi haqqında" qanunun qəbulu dalana dirənib. "Rəqabət Məcəlləsi haqqında" qanun olsa, süni bahalaşma, qiymət sövdələşmələri indiki kimi asanlıqla həyata keçirilə bilməz. Bu qanun yoxdur deyə, işbazlar rahatlıqla istədiklərini edir. Bizim ən böyük çatışmazlığımız Rəqabət Məcəlləsinin olmamağıdı. Halbuki liberal iqtisadiyyatın əsasını bu məcəllə təşkil edir. Ən sağlam iqtisadiyyat Rəqabət Məcəlləsiylə mümkün olur. Hesab edirəm ki, hazırda tələbatın böyük olduğu məhsullarda qiymət dəyişikliyinə nəzarət edilməlidir. Heç bir iqtisadi əsas olmadan, yumurtanın, şəkər tozunun qiymətlərində artım edənlər müəyyənləşib, cəzalanmalıdır.

**Məlahət Rzayeva**

# AMEA-nın nüfuzuna xeyli zərər dəyib

## Elmi işlərin müdafiəsi zamanı 80-ə yaxın plagiat aşkarlanıb

**Dünən Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Rəyasət Heyətinin binasında Akademiyanın Ümumi yığıncağı keçirilib.**

Tədbirdə Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, elm və təhsil naziri Emin Əmrullayev, Ali Attestasiya Komissiyasının sədri Famil Mustafayev, Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə, hökumət rəsmiləri, millət vəkilləri, vətəndaş cəmiyyətinin nümayəndələri iştirak ediblər.

### "Gürcüstan, hətta Moldova Avropa Elmlər Akademiyaları Birliyinə üzvdür, amma biz yoxuq"

AMEA prezidenti İsa Həbibbəyli deyib ki, Avropa Elmlər Akademiya Birliyinə üzv olmaq üçün sənədlər hazırlanır. Bunun sayəsində dünya akademiyaları ilə bir yerdə layiqli yerimizi tutacağıq. Gürcüstan, hətta Moldova Avropa Elmlər Akademiyaları Birliyinə üzvdür, amma biz yoxuq. Bu istiqamətdə işlər aparırıq".

### "AMEA-nın institutlarında baş və icraçı direktor vəzifələri ləğv edilib"

İsa Həbibbəyli vurğulayıb ki, direktorların seçki müddəti başa çatdıqdan sonra yeni rəhbər baş direktor və icraçı direktor kimi deyil, direktor kimi seçiləcək: "AMEA-nın elmi bölmələrinin hansı prosesdən keçərək yaradılmasına dair Nizamnaməyə müddəa əlavə edilib. Artıq elmi bölmələr Prezident Administrasiyası ilə razılaşdırılması şərtilə Rəyasət Heyəti tərəfindən qəbul olunacaq və Ümumi yığıncaqda təsdiqlənəcək". Qeyd edilib ki, AMEA-nın yeni nizamnaməsi təsdiq olunması üçün Prezidentə təqdim olunacaq.

AMEA Rəyasət Heyəti aparatının Elm və təhsil şöbəsinin müdiri dosent Hüseyn Hüseynov deyib ki, AMEA-da magistratura ölkə başçısının Fərmanı ilə 2015-ci ildə yaradılıb və bu günədək ümumilikdə 749 plan yeri ayrılıb ki, bu plan yerlərinə qəbul 649 nəfər olub. Onun sözlərinə görə, bu, təxminən 90 faiz qəbul deməkdir: "Akademiyada bu günədək magistratura pilləsi üzrə ümumi məzun sayı 377 nəfər olub. Həmin gənclərdən 179 nəfər Akademiyada qalaraq öz elmi fəaliyyətlərini davam etdiriblər. Bu göstərici məzunların təxminən 50 faizi deməkdir. Buradan da göründüyü kimi, Akademiyada gəncləşmə siyasətində magistraturanın çox böyük rolu var". O, eyni zamanda deyib ki, ötən il fəlsəfə doktoru hazırlığı üzrə Akademiya üçün 293 yer ayrılıb, burada qəbul sayı 160 nəfər olub və 143 nəfər müdafiə edib: "Elmlər doktoru hazırlığı üzrə isə ayrılan plan yeri 123, qəbul sayı 81, müdafiə edənlərin sayı 45 nəfər olub. Hazırda Akademiyanın doktoranturasında elmlər doktoru hazırlığı üzrə 140, fəlsəfə doktoru hazırlığı üzrə 352 nəfər, dissertanturada isə elmlər doktoru hazırlığı üzrə 456, fəlsəfə doktoru hazırlığı üzrə 385 nəfər təhsil alır".




### "471 nəfərə fəlsəfə və elmlər doktoru, 21 nəfərə professor elmi dərəcəsinin verilməsindən imtina edilib"

Ali Attestasiya Komissiyasının sədri, iqtisad elmləri doktoru, professor Famil Mustafayev deyib ki, 471 nəfərə fəlsəfə və elmlər doktoru, 21 nəfərə professor elmi dərəcəsinin verilməsindən imtina edilib: "2020-ci ildən 2023-cü ilin mart ayındadək 900 nəfərə fəlsəfə doktoru elmi dərəcəsi verilib, 427 nəfərə imtina edilib". O bildirib ki, eyni dövrdə 168 nəfərə elmlər doktoru elmi dərəcəsi verilib, 44 nəfərə isə imtina verilib. Elmi adların verilməsi barədə statistikanı açıqlayan sədr bildirib ki, 372 nəfərə dosent adı, 66 nəfərə isə imtina cavabı verilib:

"Qeyd olunan dövrdə 62 nəfərə professor elmi dərəcəsi verilib, 21 nəfərə isə imtina cavabı verilib".

### "Son illər AMEA-nın nüfuzuna xeyli zərər dəyib"

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov AMEA-nın Ümumi yığıncağında deyib ki, son illər AMEA-nın nüfuzuna xeyli zərər dəyib: "Çox təəssüf ki, son illər AMEA-nın cəmiyyətdə nüfuzuna xeyli zərər dəyib. Bunun səbəbi elm sahəsində böyük uğurlar əldə etməyən insanların bu və ya digər strukturlara cəlb olunmasıdır. Ümid edirəm ki, görüləcək işlər AMEA-nın nüfuzunun qaytarılmasına öz müsbət təsirini göstərəcək. Həmçinin bir iradım da elmi tədqiqat institutlarının tabeçiliyinin dəyişdirilməsidir. Hesab edirəm ki, bu dəyişiklik onların fəaliyyətinə, yüksək ixtisaslı kadrların işinə mənfi təsir etməməlidir".

Famil Mustafayev bildirib ki, elmi işlərin müdafiəsi zamanı 80-ə yaxını plagiat halı aşkarlanıb. O bildirib ki, bəzən müdafiə edən şəxsin müdafiə etdiyi elm sahəsi haqqında elementar biliklərə sahib olmadığı görülür: "Bu, həmin müəssisələrdə bu işin hansı səviyyədə təşkil olunduğunu göstərir. Bu vaxta qədər həmin müəssisələr və şəxslərin adı etik qaydalar çərçivəsində açıqlanmırdı. Amma gələcəkdə komissiyanın adına xələl gətirən belə müəssisə və şəxslərin adları rəsmi saytda açıqlana bilər".

**İsmayıl**

# Mən azadlıq aşiqinin nəvəsiyəm

## "Babam Söhrab Tahirin vahid Azərbaycan həsrəti vardı"



**Uşaqlıq çağıma əsrarəngizlik qatan, balaca bir qızcığazın özünəməxsus kiçik dünyasını zənginləşdirən Söhrab babamla bağlı xatirələrimdir. İllər ötsə də, baba-nəvə münasibətlərimizin şirinliyi sehirli nağıl aləmi kimi ürəyimin bir köşəsində yaşayır.**

"Baba" - bu sözdə gücə, hikmətə, illərin süzgəcindən keçən müdrikliyə bax! "Baba" - necə də gözəl səslənir! Həyatda hamının babası olmalıdır! Çünki baba sevgisinin aşıladığı əminlikdən, onun istiliyindən və yaşadığı zəngin həyat təcrübəsindən faydalanaraq tale küləyinə müqavimət göstərmək asan olur. Mənim Söhrab babam tanıdığım insanların ən yaxşısı və ən müdriki idi.

Babamı əsasən yayda görərdim. Avropada xidməti ezamiyyətdə olan ailəmiz yayda məhz babamı görmək üçün Bakıya gələrdi. Babamın səkkizinci mikrorayondakı evi mənim aləmimdə qalaçaya bənzəyirdi. Bu qalaçanın müdrik padşahı vardı, o da babam idi...

Yaşının səksəni keçməsinə baxmayaraq mənə öz əsərlərini nağıla çevirib danışardı. Cilvələnən qızılı tellərimi tumarlayar, ona xas olan zabitəli görkəmlə ahəstə-ahəstə "Ana hökmüdar" mənzum dram əsərini, "Ana ağcaqayın" poemasını,"Ata" poema-eposundan söylənclər söyləməyə başlardı. "Ana südü", "Turq-Alçiçək", "Odərboydan" söylənclərini xüsusi maraqla dinlədiyimi bilirdi. "Ana ağcaqayın"da zavallı yetim qızın halına yanaraq kövrəlib ağlayardım."Ağlama, ağlama, nənəş", deyib iri qundağa bənzəyən əlinin arxası ilə göz yaşlarımı silər, öz kövrəkliyini gizləmək üçün gülümsəyərdi. Uşaq olsam da, bu gülüşün arxasından boylanan qərib yetimliyinin amansız kölgəsini sezərdim. Mən də balaca əllərimlə onun gözlərini silib: "Ağlama, ağlama", deyə dünyanın ən humanist və dəyanətli adamına ürək-dirək verərdim. Gülüşərdik. Ən əsası isə nağıl bitəndən sonra bitmək bilməyən, saysız-hesabsız suallarımı yorulmadan cavablandırması onun dahi pedaqoq və gözəl psixoloq olmasının ən parlaq dəlaləti idi.

Mən babamdan zəhmətkeşlik, optimistlik dərsi almışam. Gecələr dan yeri sökülənədək sonuncu əsəri üzərində çalışardı. Azərbaycanın tarixi-multikultural dəyərləri ensiklopediyasına daxil edilmiş, ədəbiyyatımızın 2048 səhifədən ibarət ən iri həcmli poetik əsərini səhhətinin, daha sonra həyatının hesabına ərsəyə gətirən insan - mənim babamdır! On min il əvvəl Yaxın, Orta, Uzaq Şərq genişliklərində yaşayıb yaradan, zaman və məkan müstəvisində dəyişib öz varlığını, ləyaqətini isbat edən türkdilli qəbilə, tayfa və xalqların, xüsusilə Azərbaycan xalqının eramızın əvvəllərinə qədərki həyat və məişətinin bədii-tarixi təsvirini əsərdə əks etdirən babam, "Ata" poema- eposunu qədim şeir forması olan qoşma şəklində qələmə aldı, burada demək olar ki, ərəb, fars sözləri işlətmədi. Bu mənim üçün eyni zamanda torpağa, kökə hədsiz sevginin və vətənə vəfanın təzahürü idi. Babam mənə vətən daşı olmaq dərsini verirdi.

**Səndən tutdum, mən yenilməz güc oldum,**
**Kitab yazdım, misralandım, iç oldum,**
**Söz axtardım, yeni sözə ac oldum,**
**Mən bir idim, o tay, bu tay, üç oldum,**
**Əsər yazdım misra-misra köç oldum,**
**Həm tarixdir, həm dastandır bu əsər.**

Şəkil çəkməyi sevdiyimi bilirdi. Hər gəlişimdə yeni rəsm albomu və rəngli karandaşlar məni gözləyərdi. Amma mənimlə birgə şəkil çəkməyinə israr edərdim. Dəhlizdəki qapı baba-nəvə şəkillərinin sərgi nümayişinə çevrilmişdi. Çəkilən şəkilləri hamı görsün deyibən orada asardı. Adətən, mən başıqarlı ucadağın yamacında məskunlaşan qırmızı kərpicdən hörülmüş bacasından tüstü qalxan evi, vərəqin qırağından parlayan günəşin qızılı tellərinin ortada şırıltı ilə axan çayda çimişməsini, göyün mavi ənginliyində sıralanıb uçan quşları, baba, ata, ana, qardaşımı və özümü çəkərdim. Baba çəkdiyim şəklə baxıb dərindən: "Ah" çəkib köksünü ötürərdi.

**Dənizlər, dəryalar mənə dayazdır,**
**Ən dərin bir çay var, o da Arazdır.**
**Mənə görüş verin, azadlıq azdır,**
**Görüşsəm ayrılmaq bilmərəm daha!**

Demə, babamın kainata sığmayan həsrəti vardı... Bir gün qonaq otağında divardan asılan portretə işarə edib soruşdum:

**- Söhrab baba, bu kimdir?**

-Nəsibə nənədir, mənim anam.

**-Bəs sənin anan hardadır?**

Əimdən tutub dəhlizdəki balaca sərgimizin önünə gətirdi. Çəkdiyim şəkli mənə göstərdi:

-Bax, anam çayın o tayında, o qırmızı kərpicli evdə yaşayardı.

**-Hə-ə, bəs indi o haradadır?**

- Bax, o uçan quşlarla birgə uzaqlardadır. Əlim yetmir. Amma yuxularda gəlib bizə baxır ki, bu gün özümüzü yaxşı aparmışıq, ya yox.

Babamın iti baxışları yox olmuşdu, anasız qalan uşaq kədəri dolmuşdu gözlərinə. Uşaq olsam da hüzn və ağrı doldu içimə. Söhbəti dəyişmək üçün, onun ürəyinə məlhəm olmaq üçün boynunu qucaqladım:

- Bax, mən həm sənin, həm də bu kuklanın anasıyam. Sən də bu gündən mənə ana de.

Babam əhval-ruhiyyəni düzəltmək istəyən bu uşaq çabamı başa düşüb gülümsədi. Əlini atıb qulağımı yeyirmiş kimi nərildədi:

- Hə-ə, ədə, tutun bunu. Sən hələ bura gəl. Hara qaçırsan? Gəlin-gəlin, burda bir cüt təzə yetişmiş qulaq var.

Mən hövlnak qaçıb qapının arxasında gizlənərdim. O da qapı önündə dayanıb barmaqları ilə ehmalca onu taqqıldadar, cənublulara xas olan ahənglə, sözləri ahəstə-ahəstə uzadaraq uşaqkən anasının ona söylədiklərini təkrarlayardı:

- Adam madam iyisi gəlir, yağlı badam iyisi gəlir.

Aşkarlandığımı başa düşüb həyəcandan çığırar, "Baba, baba, mən burdayam", deyib ona sarılardım.

Sonralar anam böyük nənəm Nəsibə xanımın 1971-ci ildə Bakıya səfəri haqqında mənə təfərrüatı ilə nəql elədi. Nəsibə nənənin gəlişi Azərbaycanda böyük rezonans yaratmışdı. İyirmi beş il ayrılıqdan sonra görüşən ana-oğul dastanı bu tayda dillər əzbərinə çevrilmişdi. İkiyə parçalanan xalqın ozamankı 150 illik ağrısı, acısı, həsrəti Nəsibə ananın gəlişi ilə sanki silinib yox olur, unudulmaq istəyirdi.

**Anamın əlləri yadıma düşüb,**
**Öpüb gözüm üstə qoymaq istərəm.**
**Əlinin kötəyi necə şirindir,**
**Şirin kötəyindən doymaq istərəm.**

Babamın həsrəti vardı... Mən yaxşı bilirdim ki, bu, nə həsrətdir. Bu, bir ovuc torpaq həsrəti deyil, vahid Azərbaycan həsrəti idi. Azadlığı Savalanın zirvəsində görən və bu ucalığa yetmək üçün " dərələri xurcun kimi çiyninə aşırıb", qayalardan atılaraq "quzu olub daşlarını yalayaram duz kimi" deyib üzünü dağlara tutardı babam:

**Qurban olum sənin dam uçuran yağışına, doluna,**
**Qurban sənin dağ yolunu səngər etmiş oğluna,**
**Gir qoluma, daha çıxaq böyük dünya yoluna,**
**Dayan, dayan, ey əcdadım, qoy mən girim qoluna**
**Savalanım, Savalan!..**

Gözəl günlər uğrunda ömrünü odlara atan və indi sanki yer üzünün gəzəri Savalanına çevrilən Söhrab babam təvazökar, mənəviyyatı zəngin bir şəxsiyyət idi. Yaxşılıq onun gözü əyilməyən tərəzisi, mənəvi pasportu idi.

Məktəbdə oxuyanda bildim ki, babam zabit olub. Bu taya da 1946-cı ildə hərbi məktəbə zabit olmaq üçün göndərilib. Qayıdanda "Qızılbaş Ordu"nun zabiti olmalıymış. Döyüş əzmli idi. Yadımdadır ki, yaşının çox olmasına baxmayaraq, Azərbaycan Milli Ordusunun cəbhə və ön atəş xəttində mənfur düşmənlə üz-üzə döyüşən zabit və əsgər heyəti ilə dəfələrlə görüşlərə gedərdi. 2020-ci ilin noyabrında Şanlı Qələbə müjdəsi aldığımız zaman mən də qürur və fərəh hissilə Söhrab babamın "Azərbaycan Ordusu" Marşını xatırladım.

Babamın gələcəyə səsləndiyini indi anladım. Onun uzaqgörənliyi, vətəninə, dövlətinə, ordusuna sədaqəti bu dəfə də öz təsdiqini tapdı. Qələbə Paradında qürur və əzmlə addımlayan Azərbaycan əsgərinin hər addımında mən babamın sədasını eşidirdim:

**Sən qeyrətdən, rəşadətdən doğuldun,**
**Şanlı, doğma, Azərbaycan Ordusu!**
**Haqdır yolun, ədalədir istəyin,**
**Şanlı, doğma, Azərbaycan Ordusu!**
**Bayrağında ay-ulduzdan ağ çələng,**
**İrəli get, dəniz kimi ləpələn,**
**Düşmən üstə mərmi kimi səpələn,**
**Şanlı, doğma, Azərbaycan Ordusu!**

Söhrab babam heç zaman tək olmazdı. İnsanlar Günəş ətrafında hərəkət edən planetlər tək daim onun əhatəsindəydilər. Öz uşaq beynimdə babamın yalnız mənim və qardaşımın olduğunu düşünüb onu







başqalarına qısqanardım. "Baba mənimdir", -deyə onu bərk-bərk qucaqlayıb hamıya qaş-qabaq tökərdim. "Məktəb" oynamağı xoşlayardım, dünyadan bixəbər olan mən müəllim, həyat qasırğaları ilə döyüşdən qalib çıxan babam isə şagird olardı. Özümdən müştəbeh halda şagird babama kompüterdə işləmək öyrədərdim. Onun çap makinasında yazdığını görmüşdüm. Elə bilirdim ki, kompüteri bilsə, makinanın qara lentindən barmaqları qaralmayacaq. O isə gənc nəslin texniki bacarığını təqdir etmək üçün məndən böyük olan qardaşım Turalı və məni misal göstərərdi:

İndiki uşaqlar çox zəkidirlər. Turalgil "Pepsi Kola" nəslidir, Nigargil də ki, kompüter. İnformasiya axınından bunların beyni sürətlə işləyir.

Əsərlərinin XXIII cilddən ibarət tam külliyyatının XVI cildində mənə həsr etdiyi "Nigar nəvəmə" şeirini yalnız uşaq xislətli, həlim ürəkli, dünyaya humanist sevgisini bəyan edən insan yaza bilərdi:

**Bir nəvəm var,**
**Adı Nigar.**
**Al yanağı, göy gözü var.**
**Evdə nə var o yoxlayır,**
**Adları yadda saxlayır,**
**Danışır o hər gül ilə,**
**Gül-çiçəyin öz dilində.**
**Kuklaların çoxdur dili,**
**Biz bilmirik, Nigar bilir.**
**Soruşmayın Nigar kimdir?**
**O məktəbə getməsə də,**
**Kuklaların müəllimidir.**

Qəribədir, hərdən ətrafdakı mühitə, insanlara onun gözlərilə baxdığımın fərqinə varıram. Bəzən düşünürəm ki, onun tale yükü tək adam üçün ağır deyildimi? Yaşadığı 90 ildə ayrılıq, həsrət, qəriblik yükünün altında əzilmədi, əksinə, yalnız ona xas olan əzmlə nikbin dayandı, Savalan tək məğrur başını əymədi, yaradıcılığı və bütün varlığıyla Arazın o tayından bu tayına körpü olub "Azadlıq" hayqırdı:

**Dənizlər, dəryalar mənə dayazdır,**
**Ən dərin bir çay var, o da Arazdır.**
**Mənə görüş verin, azadlıq azdır,**
**Görüşsəm ayrılmaq bilmərəm daha!**

İllər ötdükcə babam Söhrab Tahir Azər-Azərin Arazın içində bir ada olub sahili sahilə qoşan vahidlik dastanına çevriləcəyinə inanıram! Çünki mən azadlıq aşiqinin nəvəsiyəm!

**Nigar Musazadə**



## Bir gün kimsə xəsarət alacaq

### Mağazanın pəncərəsindən qızların başına içki şüşəsi atıblar

**Bakı şəhəri, Zərifə Əliyeva 19A küçəsində xoşagəlməz hadisə yaşanıb.**

"Şərq" xəbər verir ki, məşhur influenser Həmidə Hacıyeva instaqram səhifəsində hadisə barədə paylaşım edib:

"Mağazadan çıxarkən bir kişi pəncərədən içki şüşəsini düz başımın üstünə atdı.1 saniyə tez arxaya çəkilməsəydim, o şüşə mənim başıma düşəcəkdi. Şüşəni atdıqdan sonra diqqətlə nə baş verdiyini izləyirdi. Yəqin ki, əqli problemlidir.

Təkrar nəsə atar deyə ehtiyat edib mağazada gözlədik. Mağazada qızlar belə hadisənin son günlərdir bir neçə dəfə baş verdiyini söylədi.

Məncə, bu şəxslə bağlı tədbir görülməlidir. Yoxsa bir gün kimsə xəsarət alacaq".

**Aygün Tahir**

## Xalq artisti ailəsi ilə Yaponiyaya və Çinə gedib



**Xalq artisti Yusif Eyvazov həyat yoldaşı, Rusiyanın Xalq artisti Anna Netrebko ilə birlikdə Yaponiyaya və Çinə gedib.**

Axşam.az xəbər verir ki, opera ifaçıları səfər fotolarını instaqramda yayımlayıblar. Onlar Honqkonqda, Tokioda olublar.

Anna bildirib ki, səfər zamanı Honqkonqda keçirilən musiqi festivalına qatılıblar. Onlar festivalda iki tamaşada rol alıblar.

Y.Eyvazov isə Tokiodakı çıxışlarından görüntülər yayımlayıb.

**Nar abunəçilərinin nəzərinə, 28.03.2023- cü il tarixindən etibarən, Ulduzlu 4 rəqəmli qısa nömrələrə zəngin 1 dəqiqəsinin dəyəri 0.10 AZN təşkil edəcək.**

**Elan**

Məmmədov Müqabil Fərman oğluna məxsus ŞƏHİD AİLƏSİ ÜZVÜNÜN VƏSİQƏSİ itdiyi üçün etibarsız sayılır.

**Elan**

Nar abunəçilərinin nəzərinə, 28.03.2023-cü il tarixindən etibarən, Ulduzlu 4 rəqəmli qısa nömrələrə zəngin 1 dəqiqəsinin dəyəri 0.10 AZN təşkil edəcək.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
"Muğanbank" ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MUGA400603803000225AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 720




## Yaz səfərinə "Nar"dan sərfəli rouminqlə başla!

**"Nar" xaricdəyaz tətilinidaha yaddaqalan etmək istəyən müştəriləri üçün sərfəli rouminq paketləri təqdim edir. Müxtəlif ehtiyaclara uyğun sərfəli qiymətə təqdim olunan 4 rouminq paketindən yararlanmaq üçün rouminq paketlərindən birini sifariş etmək kifayətdir.İstədiyiniz ölkəyə uyğun istənilən rouminq paketini "Nar+" tətbiqində Xidmətlər>Paketlər>Rominq bölməsindən çox rahat şəkildə sifariş edə bilərsiniz.**

Təqdim olunan "Roaming 9" paketi abunəçilərə 500 MB internet, "Roaming 15" paketi 500 MB internet və 50 dəqiqə səsli zəng, "Roaming 18" paketi 1 GB internet, "Roaming 28" paketi isə 1 GB internet və 100 dəqiqə səsli zəng xidməti təklif edir. Xüsusilə qeyd etmək lazımdır ki, "Roaming 18" və "Roaming 28" paketlərində "WhatsApp" yazışmaları tamamilə pulsuzdur, yəni bu trafik sizin internet paketinizdən çıxılmayacaq.

Bütün abunəçiləri üçün istənilən yerdə fasiləsiz ünsiyyəti təmin edən"Nar"ın "Roaming 9", "Roaming 15" paketlərinin istifadə müddəti 5, "Roaming 18" və "Roaming 28" paketlərinin istifadə müddəti isə 15 gündür.Şifariş edilən paketdaxili internet və dəqiqənin balansını yoxlamaq üçün *777#20#YES kodunu yığmaq lazımdır. Rouminq xidməti haqqında bütün məlumatları nar.az/abroad bölməsindən əldə edə bilərsiniz.







## Fransalı senator Makrona sataşdı

### Natali Qule Bakı və Paris küçələrinin təmizliyini müqayisə edib

**Fransa Senatının Orne departamentindən olan üzvü Natali Qule Twitter-də Paris küçələrinin görüntülərini paylaşaraq, müqayisə üçün müasir Bakının küçə və meydanlarının bir neçə fotosunu yerləşdirib.**

Parisin Bulon-Bilyankur qəsəbəsindən olan Natali Qulenin Twitter-də yazdığı paylaşımda o, Bakı küçələrinin heyrətamiz təmizliyini və baxımlılığını qeyd edir. Onun sözlərinə görə, bunu Fransa paytaxtı haqqında demək çətindir.

Natali Qulenin sözlərinə onu da əlavə etmək lazımdır ki, Bakının yarımsəhra landşaftına və çətin iqlim şəraitinə malik olmasına baxmayaraq, özünəməxsus memarlıq görünüşü ilə yanaşı, həm də təmizliyi, səliqəsi və yaşıllıq zənginliyi ilə Avrasiya məkanındakı şəhərlərdən fərqlənir.

Bakının təmizliyi son illərdə keyfiyyətcə yeni səviyyəyə yüksəlib ki, bu da həm bakılıların, həm də Azərbaycan paytaxtının çoxsaylı qonaqları tərəfindən daim qeyd edilir.



## Sayları 4 min oldu

### Amerika qitəsinin ən nəhəng həbsxanası dolub, daşır

**El-Salvador həbsxanasına 4 min məhbus salınıb. Bu, hazırda Amerika qitəsində ən nəhəng həbsxana sayılır.**

"Şərq" "NTV.com.tr"yə istinadən bildirir ki, El-Salvador hökuməti bu günlərdə cinayətkar şəbəkənin daha 2 min üzvünü yaxalayaraq cəzaçəkmə müəssisəsinə göndərib. Bununla da cəzaçəkmə müəssisəsində saxlanılanların sayı 4 minə yüksəlib. Məhbuslar ətdən divarı xatırladır. Onlar ayaqları bükülü halda əyləşməyə məhkumdurlar, çünki sıxlıq səbəbindən ayaqlarını uzadıb əyləşmələri mümkün deyil. Tutulanların həbsxanaya göndərilməsi anını tviter hesabında paylaşan Salvador hökumətinin naziri Nayib Bukele məhbusların sayının 4 min olduğunu deyib və əlavə edib ki, cinayətkar şəbəkə ilə mübarizə davam edir. "Bu gün yeni bir icraat gerçəkləşdi və 2 min nəfərlik qrup üzvlərini Terrorla Mübarizə Mərkəzinə təhvil verdik. Beləcə, dünyada ən çox müzakirə olunan həbsxanada cinayətkar qruplaşma üzvlərinin sayı 4 min oldu. Nazirin paylaşdığı videoda bədənləri döyməli qruplaşma üzvlərinin alt paltarlarında və ayaqyalın halda həbsxanaya göndərildiyi görünür. Bu həbsxana paytaxt San-Salvadorun 74 kilometrliyində yerləşir və 166 hektarlıq əraziyə sahibdir. Qeyd edilir ki, El Salvador hökuməti cinayətkar şəbəkəni zərərsizləşdirmək üçün elan etdiyi fövqəladə vəziyyət rejimi uzun müddətdir davam edir. Salvador xalqı mövcud vəziyyətdən razıdır və cinayətlərin miqyasının azalmasında fövqəladə halın tətbiqini doğru hesab edir.

**Məlahət**

## "İnterpol" tərəfindən axtarışa verilən azərbaycanlı Norveçdə saxlanılıb



**"İnterpol" tərəfindən axtarışa verilən azərbaycanlı Norveçin paytaxtı Osloda saxlanılıb.**

"Report"un Avropa bürosunun əldə etdiyi məlumata görə, Norveç polisi sərhəddə Azər Kazım adlı azərbaycanlının sənədlərinə baxış keçirib. O, İsveçdən Norveçə gəlirmiş.

Sənəd yoxlaması zamanı məlum olub ki, A.Kazımın adı Azərbaycanın hüquq-mühafizə orqanlarının təqdimatı əsasında "İnterpol"da axtarılanlar siyahısındadır.

Oslo polisinə təhvil verilən azərbaycanlının məhkəməyə çıxarılacağı gözlənilir.





# Ağlaya-ağlaya anlatdı



### Ronaldonun xanımı körpəsinin ölümündən danışıb



**Kriştiano Ronaldonun xanımı Georgina Rodrigues övladlarından birinin ölümü barədə danışıb. "Həyatımın həm ən bəxtəvər, həm də ən acı anını eyni vaxtda yaşadım" deyən Rodriges həyatı barədə çəkilmiş "I Am Georgina" adlı sənədli filmdə keçirdiyi hissləri dilə gətirib.**

"Şərq" "NTV.com.tr"yə istinadən xəbər verir ki, Rodriges əkiz övladlarından birinin doğuş zamanı həyatını itirməsindən ilk dəfə danışıb. "Dünya ulduzu"nun xanımı övlad acısına necə dözə bildiyini anladıb. Ronaldo ilə Georginanın qız övladları Bella Esmeralda 2022-ci ilin aprelində anadan olub. Lakin qız övladlarıyla əkiz olan digər övladları doğum zamanı tələf olub. Rodriges sənədli filmin ilk bölümündə Ronaldo ilə necə tanış olduqlarını, birgə sürdükləri həyatı anladıb, ikinci bölümdə isə ana olmağından, həmçinin övlad itkisindən danışıb. Georgina övlad itkisindən danışarkən göz yaşlarını saxlaya bilməyib: "40 milyon izləyicim var, ancaq kimsə həqiqətdə nə hiss etdiyimi bilmir. Bu il həyatımın ən xoşbəxt və ən acı anlarından birini yaşadım. Əkiz övladımız olacağını gözləyirdik, amma qucağıma yalnız birini ala bildim. Bunun şokunu çox çətin atlada bildim. Həyat davam edir, yaşamaq və güclü olmaq üçün səbəblərim var". Rodriges Kriştianonun ona böyük dəstək verdiyini deyib: "Cris mənə, "Gio, həyatına davam et, bu, səni ruhlandıracaq, mən daim yanlndayam" deyir. Hazırda təsəllim və yaşam məqsədim ailəm və övladlarımdır. Çox xoşbəxtəm və onlara minnətdaram". Qeyd edək ki, Kriştiano Ronaldo əkiz övlad gözlədiklərini sosial media hesabından paylaşmışdı: "Əkiz övlad gözlədiyimizi xəbər verməkdən çox xoşbəxtəm. Qəlbimiz sevgiylə doludur, onlarla tanış olacağım günü səbirsizliklə gözləyirəm". Əkiz övladlarından birinin vəfatından sonra Liverpul-Mancester Yunayted oyununda meydançaya çıxan Ronaldo rəqib qapısına 7-ci dəqiqədə vurduğu topu itirdiyi övladına, "Arsenal"la oyunda vurduğu topu isə oğluna həsr edib. Ümumilikdə Ronaldonun ailəsində 5 övlad böyüyür.

**Məlahət**

## 3 günə 2 milyon baxış...

### "Labour" videosu baxış sayına görə platformada trendə düşüb



**Britaniyalı müğənni Paris Palomanun "TikTok"da yayımlanan "Labour" videosu baxış sayına görə platformada trendə düşüb.**

**Lent.az bildirir ki, video martın 12-də yayımlansa da, tizerə artıq iki milyondan çox istifadəçi baxıb.**

**Qadın-kişi bərabərsizliyindən bəhs edən mahnının sözlərində "Hər gün məni çoxlu iş görməyə məcbur edirsən. Sənin üçün terapevt, ana, qulluqçu, pəri, bakirə, tibb bacısı... Ona itaət edir. O isə heç barmağını belə qaldırmır", - deyilir.**

## Ayhan Taş bir xanımla görüntülənib

### Fotolarının yayımlanmaması üçün paparatsilərə pul təklif etdi



**Türkiyəli aktyor Ayhan Taş ötən gün Cihangirdəki məkanda bir xanımla görüntülənib.**

**Axşam.az xəbər verir ki, paparatsilərin onları çəkdiyinin fərqinə varan aktyor həyəcanlanıb. İddia edilib ki, o, müxbirlərə fotoları yayımlamamaları müqabilində pul təklif edib. Kimliyi hələ bəlli olmayan xanım isə söhbətə qarışaraq içki içdiyi yerdə görüntülənməsinin ailəsi ilə arasında problem yaranacağını deyib.**

***Qeyd edək ki, Ayhan Esin Taşla evlidir. Onlar bir dəfə boşansa da, yenidən münasibətlərini rəsmiləşdiriblər. Aktyor sonuncu dəfə "Baba parası" filmində rol alıb.***

## Rihanna bu dəfə 890 manatlıq sırğası ilə diqqət çəkdi



**Məşhur müğənni Rihanna reper nişanlısı Eysap Roki (Rakim Mayers) ilə Hollivudda görüntülənib.**

**Axşam.az xəbər verir ki, ikinci övladına hamilə olan ifaçı obyektivlərə tuş gəlib. Onun üzərindəki aksesuarlar diqqət çəkib. Bəlli olub ki, Rihanna imicini tamamlamaq üçün qiyməti 1337 manat olan qolbaq, 10029 manatlıq çanta və 890 manatlıq sırğadan istifadə edib.**

***Qeyd edək ki, cütlüyün ötən ilin mayında oğlu dünyaya gəlib.***



# Keçmiş sevgilisinin sevgilisini öldürdü

### Ertəsi gün sərxoş halda hadisə yerinə gələndə yaxalandı

**İngiltərədə keçmiş sevgilisinin sevgilisini öldürən qatil ertəsi gün səhər sərxoş halda hadisə yerinə gələndə yaxalanıb. Şübhəli məhkəmə tərəfindən ömürlük həbs cəzasına məhkum edilib. Hadisə yerində şübhəli ilə polis arasındakı dialoqlar polisin üstündəki gizli kamera vasitəsilə qeydə alınıb.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, İngiltərədə 26 yaşlı Marek Hekko iyulun 25-də Çelmsford ştatının Nelson Qrov şəhərindəki bir evdə keçmiş sevgilisinin sevgilisi Adrian Ellinqfordu kürəyindən iki bıçaq zərbəsi ilə vurub. 44 yaşlı Ellinqford hadisə yerində dünyasını dəyişib.

Ertəsi gün səhər içki şüşəsi ilə sərxoş halda hadisə yerinə gələn Hekko qətli araşdıran polisə "Nə baş verdiyini anlamaq üçün mənə ehtiyacınız var" deyə səslənib.

Heko xəbərlərdə baş verənləri gördüyü üçün orada olduğunu iddia edib. Şübhəlinin polisə danışdığı anlar polisin gizli kamerası ilə lentə alınıb. Qarşısındakı adamın qatil olmasından hələ də xəbəri olmayan polis məmuru Hekkonu dinləməyə davam edib.

Polis məmuru ondan hekayəni danışmasını istəyəndə Hekko belə cavab verib: "Mən sadəcə bir adamın bura gəlib bir adam öldürdüyünü bilirəm. Sən məndən şübhələnirsən, amma mən deyiləm, çünki heç bir sübut yoxdur. Mən hər şeyi bilirəm. Bu şəhər mənimdir".

Bu sözlərdən sonra polis Marek Hekkonu qətl şübhəlisi kimi saxlayıb.

Hekko Adrian Ellinqfordun qətlində əsas şübhəli şəxs kimi həbs olunub.

BBC xəbər verir ki, qətlin törədildiyi gecə Ellinqford şübhəlinin keçmiş sevgilisi Stefani Breamın evində qalırmış.

Bream və Ellinqton yataqda olarkən Hekko evə daxil olub. O, mətbəxdən bıçağı götürərək Ellinqfordu iki dəfə bıçaqlayıb. Ellinqford hadisə yerində dünyasını dəyişib.

Prokurorların sözlərinə görə, Hekko daimi keçmiş sevgilisinin iş yerinə və evinə girərək onu daimi təqib edirmiş.

Məlum olub ki, Hekko narkotik aludəçisidir. 7 ildir birlikdə olduğu sevgilisi Stefani Bream da məhz bunu bəyənmədiyi üçün onu tərk edib və məlum qətl hadisəsi törədilib.

Məhkəməyə çıxan 26 yaşlı Marek Hekko qətldə təqsirli bilinərək ömürlük həbs cəzasına məhkum edilib.

**Turan**

## Çaşqınlıq və yaddaş itkisi

### Kəskin baş ağrıları insultun xəbərçisidir



**İnsult xəstəliyinə qarşı öncədən nə qədər tez müalicə alınıb, tədbir görülərsə, bir o qədər zədələnmə az olar.**

"Medicina" xəbər verir ki, insult beynin bir bölgəsinə qan axını kəsildikdə baş verir. Bunun səbəbi qan laxtalanması və ya qan damarının yırtılması ola bilər.

İnsulta ya arteriyalarınızdan birində qan laxtalanması (işemik) və ya beyni qidalandıran qan damarının yırtılması (hemorragik) səbəb olur. Qan tədarükü kəsilərsə, beyin hüceyrələri ölə bilər ki, bu da həyatı əhəmiyyətli dərəcədə dəyişdirə bilər.

* Xüsusi simptomlar beynin təsirlənmiş bölgəsindən qaynaqlanır və geniş şəkildə dəyişə bilər, baxmayaraq ki, birtərəfli zəiflik daha çox olur.

* Bədənin bir tərəfində zəiflik və ya tam iflic (ayaqlar, qollar və ayaqlar daxil olmaqla)

* Bulanıqlıq və ya görmə itkisi - xüsusilə bir gözdə qəfil görmə itkisi halında.

* Çətin nitq və ya nitq pozğunluğu və ya düzgün sözləri istifadə edə bilməmək - bu, başqalarının nitqini başa düşə bilməmə ilə birləşdirilə bilər.

* Çaşqınlıq və yaddaş itkisi

* Başgicəllənmə və balansın itirilməsi kimi təzahür edir.

* Belə hallar insanlar arasında müxtəlif amillərə görə baş verir.

Bu amillərə aşağıdakılar daxildir:

* Yaş - 55 yaşdan yuxarı insanların insult keçirmə ehtimalı daha yüksəkdir.

* Ailə tarixi - Əgər yaxın bir ailə üzvü daha əvvəl insult keçiribsə, riskiniz daha yüksəkdir.

* Etnik mənsubiyyət - Araşdırmalar göstərdi ki, Cənubi Asiya, Afrika və ya Karib dənizi insanlarının insult riski artır.

## Pınar Denizdən sərt reaksiya

### "Toplanan pullar haradadır?"



**Xəbər verdiyimiz kimi, Türkiyə, Azərbaycan və Şimali Kiprdə fəaliyyət göstərən televiziya və radio kanalları vasitəsilə "Türkiyə tək ürək" adlı ortaq yayımda zərərçəkənlər üçün toplanan 115 milyard 146 milyon 528 min lirənin (10 milyard manatdan çox) bir qismi hələ də ianə edilməyib.**

Axşam.az xəbər verir ki, məsələyə münasibət bildirənlərdən biri də aktrisa Pınar Deniz olub. Yayım gecəsində iştirak edən aktrisa yığılan pulların harada olduğu ilə bağlı sual ünvanlayıb:

"Toplanan pullar haradadır? Biz niyə o gecənin ortağı olduq? Həqiqətən artıq bezdim".

*Qeyd edək ki, 74 milyard 118 milyon 164 min lirə (6 milyard manatdan çox) hələ də hesaba köçürülməyib.*